# MAŞTAĞA ZİYALI QADINLAR MƏCLİSİ

(*almanax*)

**BAKI-2012**

Kitabı xalq yazıçısı Əzizə Cəfərzadənin
əziz xastirəsinə ithaf edirəm

Nəşrə hazırlayan
və
ön sözün müəllifi:
**SONA XƏYAL**

Redaktor:
**PÜNHAN SƏDA**

Maştağa ziyalı qadınlar məclisi.
Bakı-"MBM"-2012. 104 səh.

Kitabda Maştağada fəaliyyət göztərən "Ziyalı qadınlar məclisi" üzvlərinin yazıları toplanmışdır. Burada kitabları çap olunmuş, Azərbaycan Yazılar Birliyinin üzvləri olan yazıçılarla birlikdə əlinə yenicə qələm alan qadın yazarların da yazıları yer alır.

ISBN 978-9952-29-043-7

© S.Xəyal
Bakı, "MBM"

# ZİYALI QADINLAR MƏCLİSİ

Maştağa şeirlə-sənətlə nəfəs alan bir məkandır. Burada bəlkə hər evdə əli qələm tutan, ən azından beş-on kəlmə bədahətən söz deyən adam tapılar. Ağlım kəsəndən kəndimizi belə gördüm, belə tanıdım. Meyxanaçılar kəndi kimi tanınsa da, Maştağa, əslində, şairlər məkanıdır. Sadəcə biz bakılılar bir qədər yerimizdə saymağı sevirik. Kəndimizin poeziya tarixini vərəqləyəndə görürük ki, hamı elə sandıq ədəbiyyatı yaradıb. Heç kəs çap olunmaq, irəli getmək, tanınmaq fikrinə düşməyib...

Həmişə istəmişəm ki, bizim kəndin yazarları şəhərdəki ədəbi məclislərə getsinlər, yazıçılar birliyindəki tədbirlərdə iştirak etsinlər, yazsınlar, yazılarını bir-birinə oxuyub məsləhət alsınlar, dövri mətbuatda çap olunsunlar, kitablarını nəşr etdirsinlər. 2009-cu ildə Hacıağa Abbasov adına Maştağa Mədəniyyət Evində “Gənc qələm” ədəbi birliyini yaradanda da məqsədim gənclərimizi bu yola istiqamətləndirmək idi. 2010-cu ildə birliyin birilliyi münasibətilə əlaqədar olaraq, birlik üzvlərindən 16 nəfərin yaradıcılığı haqqında yazılarımın və onların yaradıcılıq nümunələrinin toplandığı “Gənc qələm” adlı bir kitab nəşr etdirdim. Daha sonra birlik üzvlərindən İlahə Zaur Kamiyabın, Vaqif Fədanın və Əlibala Xanların ilk kitablarını çap etdirdim. Təbii ki, bu kəndin uğurlarıdır. Amma bir yaralı yerimiz var ki, o da bizim kəndin yazar xanımlarıdır. Onların heç də

hamısı mədəniyyət evinə gəlmədi. Çox düşündüm, nəhayət, qəsəbədəki kütləvi kitabxanada yazar qadınları birləşdirən bir məclis təşkil etmək qərarına gəldim. Ziyalılar bu fikri bəyəndilər və müdafiə etdilər.

Həmişə istəmişdim ki, kəndimizin öz qəzeti olsun. Elə ilk yığıncaqda çoxdankı arzumu onlara bildirdim. Məsləhətləşib "Paklıq" qəzetinin nəşrinə başladıq. Ətrafımızda yazar qadınlardan başqa digər ziyalılar da olduğundan, məclisimizi "Ziyalı qadınlar məclisi" adlandırdıq. Qəzetin ilk sayı işıq üzü görəndə kitabxanada toplaşıb bu əlamətdar hadisəni qeyd elədik...

Hər həftənin bazar günü keçirilən məclislərdə oxunan yazılar qəzet səhifələrində çap olunduqca, daha bir arzu yarandı. Məclisin almanaxını buraxmaq fikrinə düşdüm. Artıq yazar xanımlarımızın yazıları toplanmış kitab çapa hazırdır. Məclis üzvlərindən Ülviyyə Bahir, Pünhan Səda artıq yazıçılar birliyinin üzvüdür, hərənin iki kitabı işıq üzü görüb. Bundan başqa İnsafxanımın və Yeganənin də şeir kitabları çap olunmuşdur. Çalışacağıq ki, gələcəkdə məclisin digər üzvlərinin kitabları da nəşr olunsun.

Almanaxın nəşri münasibəti ilə məclis üzvlərini əvvəlcədən təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

***SONA XƏYAL***
*AMEA-nın Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun böyük elmi işçisi,*
*Azərbaycan Yazıçılar Birliyinin*
*"İRS" komissiyasının sədri*

## *GÖVHƏR MAŞTAĞALI*

Gövhərxanım Mirqədir qızı Aslanova 1960-cı ildə Bakının Maştağa qəsəbəsində ziyalı ailəsində dünyaya göz açmış, 1978-ci ildə 187 saylı orta məktəbi bitirmişdir.

Atasının, əmisinin də şair təbi olmuş, evlərində daim o dövrün şairlərindən Əliəkbər Şahid, Əliağa Bakir, Seyidağa və başqaları yığışıb şeirləşmişlər. Belə ədəbi mühitdə böyüyən Gövhərxanım kiçik yaşlarından şeir yazmağa başlamışdır.

Əvvəllər "Sərraf" təxəllüsü ilə yazan Gövhərxanım, sonralar şeirlərini "Maştağalı" imzası ilə çap etdirmişdir. Qələmini əsasən dini mövzuda sınayan şairin məhəbbət lirikası da qüvvətlidir. Fövhər Maştağalı "Ziyalı qadınlar məclisi"nin sədr müavinidir.

### ALLAHIM

Səni tanımayan gözlərə nifrət,
Sənə şəkk gətirən qəlblərə lənət,
Sən hər bir yerdəsən, görməz bir sifət,
Allahım, Allahım, böyük Allahım.

Səndən gələn dərdlər xoşdur hər kəsə,
Xofundan hər yerdə vücudlar əsə.
Adilsən, qadirsən, haqsan hər kəsə,
Allahım, Allahım, böyük Allahım.

Sənsən bəndələrin daim pənahı,
Səninlə bölərlər hər dərdi, ahı,

Rəhmin tükənməzdir varsa günahı,
Allahım, Allahım, böyük Allahım

## ƏLİ (Ə)

Ey dinin sultanu, rəsula vəli,
Ey şiri-xuda, Murtəza Əli!
Elm qapısınının açarı sənsən,
Elmlə helmin gəlir tənbətən.

Tanrı bəxş eyləyib o cür ürəyi,
Sənsən məzlumların daim köməyi.
Gözəl Fatimənin damadi oldun,
O dinc gələcəyə aparan yoldun.

Bizi ayırsa da zalim kafirlər,
Şiələr bu gün də "ya Əli" deyər.

***

Axdı ulduz, qaraldı Ay,
Günəş də söndü bir zaman.
Sənin nuruna bələndi
Bu bir anda külli-cahan.

Bəxş eləyən yer üzünə
On bir imamı sərbəsər.
Qüdrətindən, qüvvətindən
Cümlə kafir tir-tir əsər.

Əbu Talib yadigarı,
Fatimənin də sərvəri.

Sənsən daim yad eləyən
Ol xatimi peyğəmbəri.

Sənsən verən qüslü kəfən
Əhmədi Muxtarımıza.
Həşridə minnətçinik
Gəl sən yetiş dadımıza.

Fəqirin istəyi tək bu:
Ruzi-cəza görsün səni.
Birləşib sən cəddim ilə,
Qurtar bu həsrətdən məni.

## FATİMƏ (Ə)

İslamın ulduzu, Rəsulun qızı,
Şəninə yazılmış Kövsər hovuzu.
Behişt meyvəsindən vücuda gəldi,
Gözəlliyi ayı, günəşi dəldi.
Hər iki dünyanın oldu xanımı,
Onun gəlişinə verrəm canımı.
Keçən hər dəmimi, hər bir anımı,
Təki sənlə olum, gözüm Fatimə,
Sənə fəda olum özüm, Fatimə.
Məhşər günü gəl bir yetiş dadıma,
Qurban olum sənin gözəl adına,
Salaydın kaş məni o vaxt yadına,
Sənə fəda olum özüm, Fatimə,
Ey şirin kəlamım, sözüm, Fatimə.

***

Bütün qadınların ulu rəhbəri,

Yalnız Fatimədir, bunu bilin siz.
Hər şeyi öyrənib o pak xanımdan,
Ruhu qarşısında təzim ediniz.
Fatimə bizimçün sağdır hər zaman,
Müşkülə düşəndə diləyin aman.
Hacətlər verəndir Muxtarın qızı,
İslam aləminin parlaq ulduzu.
İsməti, həyanı, arı götürün,
Gələn nəsillərə bir-bir ötürün.
Onun etdiyini siz edə bilsəz,
Açdığı cığırla bir gedə bilsəz,
Təkcə səadətə aparar sizi,
Bununla bitirər bu ömrünüzü.

## İMAM HƏSƏN (Ə)

On beşi Ramazan, səşənbə günü,
Mədinə şəhrində bir nur doğuldu.
Bu nur tutmuş idi ayı və günü,
Həsənül Müctəba belə oğuldu.
Rəsuli Əkrəmin dilin əmərmiş.
Böyüdükcə bədirlənmiş qəmərmiş.
“Sən mənə çox bənzəyirsən, ey Həsən,
Surətdə, təmkində eynən özümsən.”
Deyib şərh eylədi o Ali Əba,
Sonra təsdiqlədi Əli Mürtəza.
Axtarsan, çox idi kəramətləri,
Hamıya bəlliydi səxavətləri.
Teyyibin elə bir süfrəsi vardı,
Kim gəlsə, hamıya yeri çatardı.

Bu on illik imaməti zamanı,
Deməkolmaz, xoş keçmişdi hər anı.
Çalışıb hamını salardı razı,
Heç vaxt əskilmirdi razi, niyazı.
Zəhri ilə doğranarkən əziz canı,
Namərd hiyləsinin oldu qurbanı.
O, Səfər ayının iyirmi səkkizi,
Qırx yeddi sinnində tərk etdi bizi.

## MAHİ-MÜHƏRRƏM

Tutarlar əza Hüseynə,
Hər mahi-Mühərrəmdə.
Açılmaz gözü, könlü
Hər kim Xudaya bəndə.

Müsəlmançun bilin ki,
Hər bir yer Kərbəladır.
Hər gün ruzi-Qiyamət
Hər gün də Aşuradır.

## HÜSEYNİM (ə)

İmamət bağının gülü reyhanı,
Dəşti-Kərbəlanın susuz qurbanı.
Dəstəmazı olan son damla qanı,
Hüseynimdir, Hüseynimdir, Hüseynim.

O şəhidlik zirvəsinin sultanı,
Nakəs kafərlərin qatı düşmanı.

Din yolunda keçən ömrü, zamanı,
Hüseynimdir, Hüseynimdir, Hüseynim.

## MÜHƏMMƏD BAQİR (ə)

Səccadın ailəsi sevindi yaman,
Dünyaya göz açdı ayüzlü oğlan.
Səxavəti böyük, mükəmməl elmi.
Elmindən heç geri qalmırdı helmi.
Gözəl ad qazandı tez bir zamanda,
Yetişər dadına, qalsan amanda.
Həyatı üç yerə sanki bölündü,
Üç imam yanında o zat böyüdü.
Ağaya hər baxan deyərdi əhsən,
Anası Fatimə, o binti-Həsən.
Şabanın birində dünyaya gəldi,
Gəlişi elmlər bağrını dəldi.
Bütün elmlərə vaqifdir Baqir,
Oturar təmkinlə, danışar ağır.
Doğulduğu yerdi şəhri-Mədinə,
Külli-kainatı çağırdı dinə.
On doqquz il, on ay və on iki gün
İtaətindəydi ulduz, Ay və Gün.
Hişam Əbdülməlik lap çox çalışdı.
Həzrət o zəhrdən od tək alışdı.
Əlli yeddi yaşa çatdığı zaman
İmamət dövrünü etmişdi tamam.

## BU DÜNYAYA ALDANMA

Ey nağıl dünyanın fəqir mehmanı,
Bivəfa cahanda qazancın nədir?
Tanrım imtahana çəkir insanı,
Torpaqdan yaranan torpağa gedir.
Tək xoş əməlinlə tanınarsan bil,
Dünyanın ləzzətin qəlb evindən sil.
Bir də ki, aldanma ani sevincə,
Qəm daha üstündür, qəm daha incə.
Daima könlünə dost tutsan onu,
Sənə asan gələr tale oyunu.
Bir də ki, Qurana təqlid edənlər,
Onun göstərdiyi yolla gedənlər
Əbədi qovuşar səadətinə,
Həm də layiq olar el hörmətinə.

## DÜNYA MƏNƏ DAR GƏLİR

Ürəyim dolubdur, boşaltmaq üçün
Sonsuz bir ümmana ehtiyacım var.
Axtarıb-axtarıb soruram neyçün,
Bu cür geniş dünya mənə gəlir dar.

Sual eyləyirəm özüm-özümə,
Cavabı çətindir heç tapammıram.
By böyük cahanı bir nöqtə edən,
Təkcə cahan dardır mənim gözümə.

## SƏFASI YOX DÜNYANIN

Bu dünyanın hər üzünü görmüşəm,
Tellərimi qəm bağıyla hörmüşəm,
Gün olub ki, yüz ölüb dirilmişəm,
Çifayda ki, vəfası yox dünyanın,
Cəfası çox, səfası yox dünyanın.

Yaxşılığı çox eylədim nadana,
Bilməyiblər, qalmışam yana-yana.
Etdiyimi üzümə dana-dana,
Üzü bozmuş, həyası yox dünyanın,
Cəfası çox, səfası yox dünyanın.

Karvan-karvan əqrəbalar itirdim,
Əvəzində neçə toxum bitirdim,
Axtararaq ovunmaq çox çətindir,
Yeyəndir, iştahası çox dünyanın,
Cəfası çox, səfası yox dünyanın.

## İNSAN

Bəşərin ən böyük arzu-diləyi,
Əlçatmaz zirvəyə can atmaqdır, can.
Unudur Tanrını, danır mələyi,
Nə qədər naşükür olurmuş insan.
Yaradan böyükdür, Yaradan ulu,
Biz miskin bəndələr Allahın qulu.
Niyə qorxmayırıq bir pis əməldən
Ki, heçə çıxarar min xoş əməli.
Yaxşılıq qoparsa kökdən, təməldən,
Qoyular pisliyin o an təməli.

## ETMƏ XƏYANƏT

Bu zalım dünyanın yükün çəkməyə,
Doğulan bəşərdə əmək gərəkdir.
Yoxsa yaşamağa nə var dünyada,
İnsana halal duz-çörək gərəkdir.
Bu iki nemətdir bizə əmanət,
Bunlara heç zaman etmə xəyanət.
Halal zəhmətinlə qazansan onu,
Xoş keçən həyatın olmayar sonu.

## ƏN BÖYÜK SUAL

Həyat əfsanədir, ömür vəfasız,
Ötüşə bilmirik qəmsiz-xətasız.
Hər xəta bir səhvdir, düzəltmək çətin
Gərəkdir olasan döyüşkən, mətin.
Vay o gündən ki, bilə-bilə sən
Özünü qalib yox, təslim görəsən.
Göz yumub həyatın hər ləzzətinə,
Çatmaq istəyəsən öz niyyətinə.
Bu dünya nədir ki, sınaq, imtahan,
Gərək o dünyasın düşünə insan.
Nə qədri miskindir, acizdir bəşər,
Allah böyüklüyü bizlərə yetər.
Ki, daim birləşib kölgəsində biz,
Saflaşaq, paklaşaq və olaq təmiz.
Yükünü tutaraq xoş əməlindən,
Tanrı hüzuruna hazırmısan sən?
Bax, budur ən böyük sual cahanda
Xoşbəxtlikdir ona cavab tapanda.

## BƏNÖVŞƏ ÖMRÜ

Bir tək çiçək gördüm kolun dalında,
Boynu bükük idi, gözlərində qəm.
Sanki sərin külək əssə yanından
Qopub düşəcəkdi gül saplağından.

Yarpaqları göyümtül, ləçəkləri nə zərif,
Onu bəzəmək üçün tapmaq olmayır tərif.
Hər gözəlin öz eybi, deyirlər, dünyada var,
Bənövşənin də ömrü onun üçün az olar.

## BƏNÖVŞƏ

Boynunu bükmüsən baxırsan yola,
Səndəmi həsrətsən yarə, bənövşə?
Qoyma ki, telini küləklər yola,
Gəl, vurma köksümə yarə, bənövşə!

Mən ki, anlayıram sənin dərdini,
Sən də gəl bir anlıq dinlə qəlbimi.
Deyirəm, üzüldü, ya dərildimi
Qismət olmayasan xarə, bənövşə!

Müştaqam yarpağın zərifliyinə,
İncə saplağına, ürkək gülünə.
Qoyma ki, könülü dərdə bürünə,
Gülümsə, gəl, çəkmə darə, bənövşə.

## *İNSAFXANIM*

Aydəmirli Məşədi İnsafxanım Kərbəlayi Bilal qızı 1963-cü ildə Bakının Maştağa qəsəbəsində anadan olmuşdur. 1978-ci ildə 187 saylı orta məktəbi bitirmişdir. Mədrəsədə fəaliyyət göstərən ilahiyyat kursunda dini təhsil almışdır. Şeirləri müxtəlif qəzetlərdə çap olunub. Bir şeir kitabı işıq üzü görüb.

### 20 YANVAR GÜNÜ

Torpaq üstə qan düşdü,
Neçə-neçə can düşdü,
Bir dəhşətli an düşdü,
İyirmi Yanvar günü.

Cisminiz paralandı,
Bəxtiniz qaralandı,
Ürəyim yaralandı,
İyirmi Yanvar günü.

Tarixə iz saldınız,
Ürəklərdə qaldınız,
Azadlığı aldınız,
İyirmi Yanvar günü.

Axıb getdi qanınız,
Ucaldı əfqanınız,
Nələr çəkdi canınız
İyirmi Yanvar günü.

Bacarmadım özümlə,
Qaldım ağlar gözümlə,
Kaş olaydım sizinlə
İyirmi Yanvar günü.

Sizə matəm saxladı,
Gecə-gündüz ağladı,
İnsaf qara bağladı
İyirmi Yanvar günü.

## DÜNYADA

Mən necə sevinim, mən necə gülüm,
Bu qədər qəm-kədər olan dünyada.
Bir Allahdan başqa, bir də ölümdən,
Hər nə var yalandır, yalan dünyada.

Çox da sevinməsin bəxtəvər insan,
Ömrü başa vurur birtəhər insan.
Bunu bilməlidir fəqət hər insan,
Təkcə yaxşılıqdır qalan dünyada.

Bu fani dünyada hər nə var, boşdur,
Allahın yoluyla getsək, bu xoşdur.
Dünyanı dərk edən könül naxoşdur,
Anbaan ömrümüz talan dünyada.

Hər şeydən üstündür, üstün səxavət,
Ataya, anaya göstər məhəbbət.
Sən öləndən sonra səni nəhayət,
Tapılsın yadına salan dünyada.

Ey İnsaf, dünyanın budur gərdişi,
Açılmayır sirri, bilinmir işi.
Gedəcək dünyadan hər qadın, kişi,
Ömür çatanadək dolan dünyada.

## AYRILIQ DƏRDI

Tənha gecələrdə xəyala daldım,
O sənli günləri yadıma saldım.
Sən getdin, ay bala, mən sənsiz qaldım,
Necə də gözəldi o sənli çağlar,
Sənin həsrətinlə gözlərim ağlar.

Sən getdin göynədi qəlbimin başı,
Ağladım, sızladım, tökdüm göz yaşı.
Mən ölsəm, ağlayar qəbrimin daşı,
Sən getdin saraldı bağçalar, bağlar,
Sənin həsrətinlə gözlərim ağlar.

Bircə an geriyə dönəydi zaman,
Ayrılıq ölümdən yamandı, yaman.
Həsrətin edibdir qəddimi kaman,
Sənsizlik, ay bala, qəlbimi dağlar,
Sənin həsrətinlə gözlərim ağlar.

Tənha gecələrdə bitməyir dərdim,
Getməyir gözümdən bir an surətin.
Nədəndir yetməyir sənə əllərim,
Unutmayıb səni, İnsaf soraqlar,
Sənin həsrətinlə gözlərim ağlar.

## İBRƏTNAMƏ

Bu fələk çoxlarının bağrını al-qan elədi,
Neçə abad könülü yıxdı o, viran elədi.
Kimini dərdə salıb, kimləri sultan elədi,
Varmadı fərqinə o, xak ilə yeksan elədi.

Ana bətnində ikən aldı balanın canını,
İnsanın faciələrlə bürüdü dörd yanını.
Axıtdı din yolunda on iki imamın qanını,
Həzrəti Fatimənin qəbrini pünhan elədi.

Çox bəlalar yaşanıbdır bu fəna dünyada,
Kimi aşkarda gedib, kimisi gedib röyada.
Can verən vaxtda Əli yetsin özü imdada,
Oğlu ölmüş ananın qəmləri tüğyan elədi.

Necə bel bağlasın insan qohuma, övlada,
Son nəfəsdə çatan olmur haraya, imdada.
Necə qərq olmadı Nuhun gəmisi dəryada,
Suya döndü bu cahan, yer üzü tufan elədi.

Özünə zülm eləyib uyma cahanın malına,
Sal Həsəni yadına, ağla Hüseyn əhvalına.
Can verən vaxtda Əli yandı mələklər halına,
Lənətə gəlmiş onu qanına qəltan elədi.

Əzəldən axıradək cövrü-cəfadır dünya,
İnanmaz İnsaf ona, çün bivəfadır dünya.
Bəlası çoxdur onun, xövfi-xətadır dünya,
Əcəl gələndə kimin dərdinə dərman elədi?

## ATACAN

Cahanda olmaz inan sən kimi insan, atacan,
Səni tənha yaradıb gərdişi-dövran, atacan.

Kor olum zəhmətini, haqqını dansam mən əgər,
Çünki qanındır axan şah damarımdan, atacan.

Göydə Rəbbimdir, fəqət yerdə sən allahımsan,
Bu, bir hikmətdi, deyir sahibi-Quran, atacan.

Etsə övladlar əgər şövq ilə imdad anama,
Səndən özgə kim olar bəs ona sultan, atacan.

Qürbətə düşsəm əgər, zərrə qədər kar eləməz,
Sənin hicrində yanıb mən verərəm can, atacan.

Ağaran saçlarını oxşayaraq ah çəkərəm,
Səni möhnətdə görüb, ağlaram hər an, atacan.

Yüz bəla gəlsə əgər, özgələr imdad eləməz,
Sənsən hər dərdə dəva, dərdimə dərman, atacan.

Ömrünü sərf elədin dəhrdə övladın üçün,
Səni illər eləyib, gör necə piran, atacan.

Qüdrətim yoxdur, ata, bil ki, çıxam borcundan,
Rahat ollam, ola bilsəm sənə qurban, atacan.

Mənə lütf etsə Xuda, haqqını qaytarsam əgər,
Bəlkə rahat köçərəm mən bu cahandan, atacan.

Halal et İnsafa, nolar, atalıq zəhmətini,
Gəlsə naqafil əcəl, kaş ola imkan, atacan.

## YETİM

Yetimin taleyi gülməz üzünə,
Gen dünya dar olar onun gözünə.
Bir kimsə yanaşıb baxmaz üzünə,
Baxıb öz-özünə xar olar yetim.

Dəyməz qulağına ana laylası,
Anasız dünyanın olmaz mənası.
Qövr edər könlündə illər yarası,
Ağlayar, bimarü zar olar yetim.

Bir kimsə dar gündə gərəyi olmaz,
Axşamlar ac yatar, çörəyi olmaz.
Allahından başqa köməyi olmaz,
Acı xəyallara yar olar yetim.

Bayram axşamları geyinməz təzə,
Utanar, sıxılar, görünməz gözə.
Sönük lampaları oxşayar közə,
Yoxsul daxmasında saralar yetim.

## SÖNMÜSƏN DAHA

Sən mənim könlümdə aydın səhərdin,
Qaranlıq gecəyə dönmüsən daha.
Ömür yollarıma nur çiləyərdin,
Günəş tək yanardın, sönmüsən daha.

Hər axşam mən səni salırdım yada,
Pərişan könlümü yandırdın oda.

Tək səni sevirdim, səni, dünyada,
Ucaydın gözümdə, enmisən daha.

Sirrimi deməzdim dosta, yoldaşa,
Günüm həsrətinlə gələrdi başa.
Xəyalən mənimlə gəzərdin qoşa,
Könlümdən eşqini silmisən daha.

## MƏNİM DEYİL

Nə vaxtdır dostlarım dəyməyir gözə,
Həsrətəm, İlahi, bir şirin sözə.
Bəlkə bilməyirəm, gəlmişəm gözə?
Süstləşib bədənim, can mənim deyil.

Kinli baxışlardan gəlmişəm zara,
Nə edim, sağalmır sinəmdə yara.
Aydın səhərlər də gözümdə qara,
Sübh çağı sökülən dan mənim deyil.

Dünyaya gəlmişəm bir ilk baharda,
Həmişə olmuşam çətində, darda.
Elə bil qalmışam dolaşıq torda,
Zaman mənim deyil, an mənim deyil.

Ürək rəhimlidir, bu can neyləsin,
İnsaf, sənin üçün loğman neyləsin.
Çarəsiz bir dərdə dərman neyləsin,
Demə can üzülür, can mənim deyil.

## ÖYÜNMƏ, INSAN

Dünyanın malı ilə öyünmə, insan,
Varlı da, varsız da gedər dünyadan.
Həmişə Tanrıya ibadət eylə,
Səni xəlq eyləmiş ulu Yaradan.

Bil ki, gedəcəyin mənzil haradır,
Bütün canlıları Allah yaradır.
Arif ol sən, ağa demə, qaradır,
Bacar ayırmağı ağı qaradan.

Qardaş ol düzlüyə, səmimiyyətə,
Mömin ol düşəsən ta ki, cənnətə.
Bir gün qovuşarsan əbədiyyətə,
Bu fani dünyaya uyma, ey insan.

Qeybətlə korlama xasiyyətini,
Səbr elə, həyatın keçər çətini.
Şahlar qoyub getmiş səltənətini,
Bir kömək olmamış puldan, paradan.

İnsaf, çox eyləmə sən də ahu-zar,
Bir gün səninçün də qazılar məzar.
Haçansa göylərə edərkən güzar,
Ruhunu qarşılar ulu Yaradan.

## BAĞIŞLA MƏNİ

Məni cananımdan ayırma, ya Rəbb,
Sevdiyim canana bağışla məni.
Mən illər boyunca həsrət çəkmişəm
Həsrətə, hicrana bağışla məni.

Nə yaxşı, bu dərddən olmadım dəli,
Bəzən öz-özümə gəldim gülməli.
Yetişsin haraya Həzrəti Əli,
O Şahi-mərdana bağışla məni.

Bir az da, İlahi, ver mənə dözüm,
Hüseyn məzarında qalıbdır gözüm.
Müqəddəs yerləri qoy gedim gəzim,
Şahi-Xorasana bağışla məni.

Bağışla, nə qədər etmişəm günah,
Mənə mərhəmət et, ey qadir Allah.
Üz tutub mən sənə gətirdim pənah,
Rövzeyi-rizvana bağışla məni.

## DÜNYA

Bu dünya bağçadır, hər kəs gül dərir,
Gedənlər gedibdir, gələnlər gəlir.
Onun adətini müdriklər bilir,
Dərk edən insana zindandır dünya.

Haqqı deyənlərin boynundan vurur,
Fəqirin, kasıbın qəsdinə durur.

Zülm edir, min hiylə, min cür tor qurur,
Dərk edən insana zindandır dünya.

Əvvəl əzizləyir gələn qonağı,
Sonra ortalığa salır fərağı,
Dəmbədəm ölümdən verir sorağı,
Dərk edən insana zindandır dünya.

Hər kəsə bir ömür yazdı İlahi,
Biçarə insanın artdı günahı,
Ya Rəbbim, İnsafın sənsən pənahı,
Dərk edən insana zindandır dünya.



## *YEGANƏ*

Yeganə Həmid qızı Hadiyeva 1973-cü il sentyabrın 23-də Bakı şəhəri Maştağa qəsəbəsində anadan olub. 1990-cı ildə Sabunçu rayonu 96 saylı orta məktəbi, 1998-ci ildə Əhməd Cavad adına Bakı Mədəni Maarif Texnikumunu klub tədbirləri rejissoru ixtisası üzrə bitirib. 2002-2005-ci illərdə Bakı Yeyinti Sənayesi Texnikumunda marketinq ixtisası üzrə təhsil alıb.

2000-2003-cü illərdə Nardaran qəsəbə klubunda kütləvi işlər təlimatçısı, 2006-2007-ci illərdə Hacıağa Abbasov adına Maştağa Mədəniyyət Evində metodist vəzifələrində işləyib. 2009-cu ildə Natiqlərin I Ümumrespublika Müsabiqəsinin qalibi olub.

İlk şeirini II sinifdə oxuyarkən yazıb. 1993-cü ildən dövri mətbuatda şeirləri və publisistik yazıları ilə müntəzəm çıxış edir. Yazıları "Ulduz", "Yazıçı qadın" jurnallarında "Paklıq", "Real-Press", "Azərbaycan XXI əsr", "Kaspi", "Aydın fikir", "Bütöv Azərbaycan" və digər qəzetlərdə çap olunub. Müxtəlif illərdə "Murovdağ", "Paklıq", "Hikmət" "Respublika" qəzetlərinin əməkdaşı olub. Hal-hazırda "Paklıq" qəzetinin baş redaktor müavinidir.

Hacı Mailin sədrlik etdiyi "Füzuli ədəbi məclisi"nin və "Pərvanə" ədəbi məclisinin üzvü olub. "İti qələm" respublika ədəbi birliyinin üzvüdür və dövri mətbuatda gedən yazılarına görə birliyin "İti qələm" diplomu ilə təltif olunub. 2012-ci ildə "Bir nağıl var içimdə" adlı şeirlər kitabı işıq üzü görüb. Maştağa Mədəniyyət Evində fəaliyyət göstərən "Gənc qələm" ədəbi birliyinin sədridir.

## ÇOX CAHİLLƏR GİRİB BƏHSƏ

Adam var ki, canı–şöhrət,
Adına bir cah yükləyər.
Heç bilməz ki, nədir qeyrət,-
Başına külah yükləyər.

Bekarçılıqdan darıxıb,
Adam var durub ev yıxıb.
Bugündən salamat çıxıb,
Ömrünə sabah yükləyər.

Bir yol uzun, bir yol kəsə,
Çox cahillər girib bəhsə.
Çoxu tələsə-tələsə
Boynuna günah yükləyər.

Hələ yoxdur xəbər-ətər,
Ancaq bir gün səbri bitər.
Dəhrə bir-birindən betər
Dərdləri Allah yükləyər.

Bu şeytana uyan bəndə,
Bugünçün yaşayan bəndə,
Qiyamət günü gələndə
Dilinə "eyvah" yükləyər.

## BU ARALAR, BİRCƏ, MƏNƏ DƏYMƏYİN

Əzablardan yorğun düşən vaxtımdır,
Bu aralar, bircə, mənə dəyməyin.
Odda donan, buzda bişən vaxtımdır,
Bu aralar, bircə, mənə dəyməyin.

Əvəz olmaz itirdiyim kəsimə,
Yas saxlaram öldürdüyüm hissimə.
Dərsmi çatar həyat verən dərsimə?!
Bu aralar, bircə, mənə dəyməyin.

Qoyun, bir az səhvlərimi anlayım,
Qoyun, bir az öz-özümü danlayım,
Qoyun, çəkim nə qədər var qəm payım,
Bu aralar, bircə, mənə dəyməyin.
Bu aralar, bircə, mənə dəyməyin.

## ALIŞMIŞAM

Ömrüm boyu bir sevincim olmadı,
Ümid əkib, dərd biçərək böyüdüm.
Dərddən başqa bir qazancım olmadı,
Dərd yeyərək, dərd içərək böyüdüm.

Alışmışam tapdığımı itirəm,
Bügünümü dünənimdə bitirəm,
Sabahıma yeni bir dərd ötürəm,
Mən boyuma dərd ölçərək böyüdüm.
Ümid əkib, dərd biçərək böyüdüm.

## ZİLƏ ÇIXMAQ MƏNLİK DEYİL

İstər axşam, istər sabah
Mən elə şeir yazıram.
İşim-gücüm yoxmu, Allah,
Bir belə şeir yazıram.

Yar oldum bir vəfasıza,
Bir baxın ha, mən arsıza.
O əhdə etibarsıza
Silsilə şeir yazıram.

Haram tıxmaq mənlik deyil,
Yuva yıxmaq mənlik deyil,
Zilə çıxmaq mənlik deyil,
Bəm ilə şeir yazıram.

"Beşgünlük" ömürdü deyə,
Hamı getdi "gün görməyə".
Gözlərimi döyə-döyə
Mən hələ şeir yazıram.

## DÖZÜMÜNÜ ÖLÇDÜ ÖMRÜM

Heç bir xoşbəxt gün görmədi,
Acılarla keçdi ömrüm.
Ürəyimdən dərd-qəm yedi,
Gözümdən su içdi ömrüm.

Ac da oldum, tox da oldum,
Az da oldum, çox da oldum,
Var da oldum, yox da oldum,
Dözümünü ölçdü ömrüm.

Səhər, axşam, gündüz, gecə,
Dəqiq-dəqiq, incə-incə,
Vaxtındaca, yerindəcə
Tükü tükdən seçdi ömrüm.

Mən ürəyi daş olmadım,
Heç pis niyyət daşımadım,
Özüm üçün yaşamadım,
Ömürlərə köçdü ömrüm.

## SƏN MƏNƏ BİR DÜNYA SEVİNC GƏTİRDİN

Sevinməyi çoxdan yadırğamışdım,
Sən mənə bir dünya sevinc gətirdin.
Həyat çox döymüşdü, çox ağlamışdım,
Bütün dərdlərimə əlac gətirdin.

Bir arzum var idi gözümdə qalan,
Bir tilsim var idi arzumda çalan,
Qəlbimdə illərdir yurd-yuva salan
Ən böyük nisgili, qəmi itirdin.

Ən ağır çağımda gəldin ömrümə,
Sən hamıdan yaxın oldun könlümə.
Bir "oğul" kəlməsi verdin dilimə,
Övlad həsrətimi, oğlum, bitirdin.

## AĞIL HİSSLƏRƏ DARAQDIR

Xəyalların quşlar kimi
Səmalarda süzər, oğlum.
Arzuların nəhəng gəmi,
Limanını gəzər, oğlum.

Ehtiyat ərə yaraqdır,
Ağıl hisslərə daraqdır,
Həyat çətin bir sınaqdır,
İmanlı kəs dözər, oğlum.

Gözünün rəngi qarışıq, -
Bu da sənə bir yaraşıq,
Üzündəki o ağ işıq
Həyatımı bəzər, oğlum.

Namus, qeyrət, arın vardır,
Dağ kimi vüqarın vardır,
Bir vəfalı yarın vardır,
Qoy dəyməsin nəzər, oğlum.

## "OĞUL DÜŞMƏN ÇƏPƏRİDİR"

Dünən evin uşağıydı,
Oğlum əsgər gedir bu gün.
Bir evin yaraşığıydı,
Elin igididir bu gün.

Bilirəm ki, lazım gəlsə
Döyüşə də girəcəkdir.
Vəzifəsi hər nə isə,
Öhdəsindən gələcəkdir.

Dözümlüdür, təpərlidir,
Gözlərində ümid parlar.
Qorxu bilməz, hünərlidir,
Bir zəfərli səhəri var.

"Oğul düşmən çəpəridir",
Oğullar vətənə dirək.
Vətən bu gün əldən gedir,
Oğullar sərhəddə gərək.

El üçün böyütməlidir
Hər bir ana öz oğlunu.
Beşikdən öyrətməlidir
Vətənin nə olduğunu.

Dünən evin uşağıydı,
Oğlum əsgər gedir bu gün.
Bir evin yaraşığıydı,
Elin igididir bu gün.

## İÇİNİ NƏ İSƏ DİDİR

Odun-alovun səngiyir, -
Közə çevrilirsən hərdən.
Hərdən bir dağa bənzəyir,
Düzə çevrilirsən hərdən.

Hərdən yalana bürünür,
Hərdən palana bürünür,
Hərdən astardan görünür,
Üzə çevrilirsən hərdən.

Gah üz-gözün düşür qıra,
Gah da boyanırsan nura.
Hərdən dönürsən sıfıra,
Yüzə çevrilirsən hərdən.

İçini nə isə didir,
Bir bilmədim dərdin nədir.
Hərdən ağlın yerindədir,
Nəsə, çevrilirsən hərdən.

Olsan da nə cür, nə sayaq,
Qürurumu sındıraraq
Sətir-sətir, varaq-varaq
Sözə çevrilirsən hərdən.

## VARMI XƏBƏRİN

Sevgilim, xəbərdən varmı xəbərin, -
Yuxum çəkilibdir yenə bu gecə.
Mən əsiri olub qafiyələrin
Sənə şeir yazdım yenə indicə.

Bütün dincliyimi alıb apardın,
Sənli fikirlərin qoruna düşdüm.
Elə gərək gəlib məni tapardın?!
Yenə də sözlərin toruna düşdüm.

Yaşayırdım bir az adamsayağı,
Məni dəli, gic və sair elədin.
Çoxdan tərgitmişdim şeir yazmağı,
Sən məni yenidən şair elədin.

## BİR SEHRLİ KƏLMƏ SÖYLƏSƏM SƏNƏ

Bir sehrli kəlmə söyləsəm sənə,
İçindəki buzlar, de, əriyərmi?
Ürəyin gələrmi görən yerinə?
Ürəyim deyəni o da deyərmi?

Mən nələr çəkirəm əlindən sənin, -
Anlarmı gözlərin, qəlbin bilərmi?
Bir xoş söz çıxarmı dilindən sənin?
Bircə yol gözümə gözün gülərmi?

Ruhumuz köklənib eyni pərdədə,
Eyni hava üstdə görən dinərmi?
Bir nurlu səhərdə, aylı gecədə
İtirdiklərimiz geri dönərmi?
İtirdiklərimiz geri dönərmi?

## SƏN BU VAXTA QƏDƏR HARDA İDİN BƏS

Deyirsən bu yaşda sevim yenidən?
Sən bu vaxta qədər harda idin bəs?
Ay mənim ruhumu yerindən edən,
Ay mənim bir ömür axtardığım kəs.

Bir ocaq çatmısan qəlbimdə mənim,
Söndürə bilməyə gümanım yoxdur.
Ay məni özünə möhtac edənim,
Səni anmadığım bir anım yoxdur.

Mən sənin tayınam, sən mənim tayım,
Bir ola bilmirik nədənsə ancaq.
Ay səmadan enmiş səadət payım,
Bizim axırımız necə olacaq?

Deyirsən bu yaşda sevim yenidən,
Sən bu vaxta qədər harda idin bəs?
Ay mənim ruhumu yerindən edən,
Ay mənim bir ömür axtardığım kəs.

## ÇAŞIB AĞLIM<br>"HƏ" DEMİŞƏM

Heç bilmirəm ki, nə zaman
Sən düşmüsən ürəyimə.
Onu bilirəm ki, yaman
Sən düşmüsən ürəyimə.

Axı səndə nə görmüşəm, -
Çaşıb ağlım, "hə" demişəm.
Hələ yer də göstərmişəm,
Əyləşmisən ürəyimə.

Varımı-yoxumu alıb,
Gözümdən yuxumu alıb,
Rahatca yer-yataq salıb
Yerləşmisən ürəyimə.

İstəyirəm yıxam, sökəm,
Gücüm çatmır dartam, çəkəm, -
Zalım balası, nə möhkəm
İlişmisən ürəyimə...

Heç bilmirəm ki, nə zaman
Sən düşmüsən ürəyimə.

## SƏN MƏNDƏN DƏLİSƏN, MƏN SƏNDƏN DƏLİ

Lap bir-birimizə tay yaranmışıq,
Sən məndən dəlisən, mən səndən dəli.
Gör bir hansı yaşda sevdalanmışıq,
Sən də gülməlisən, mən də gülməli.

Bizdən danışanlar çoxalır yaman,
Biri zurna çalır, biri balaban.
Hərdən düşünürəm: dayanır zaman...
Sən də "ölməli"sən, mən də "ölməli".

Hər yandan yolları bağlayacaqlar,
Bilirəm, olacaq çox olacaqlar.
Bizi qovuşmağa qoymayacaqlar,
Sən də bilməlisən, mən də bilməli.

Gör bir hansı yaşda sevdalanmışıq,
Sən məndən dəlisən, mən səndən dəli.

## SƏNİ BİR ANLAYAN, DUYAN OLMAMIŞ

Səni bir anlığa fikir apardı,
Mən nələr görmədim baxışlarında.
İllərin əzabı, kədəri vardı
Ürəkdən yol almış göz yaşlarında.

Bir qərib iztirab sarmış çöhrəni,
Ömür vaxtsız salmış saçına dəni.
Taleyin ən acı oyunu səni
Erkən haqlayıbmış–gənc yaşlarında.

Kimsə sənə həmdəm, həyan olmamış,
Olduğun tək bilən, sayan olmamış.
Səni bir anlayan, duyan olmamış
Qəlbinin şaxtalı, sərt qışlarında.

Çox arzun ürəkdə qalıb gəlmisən,
Dərdini içinə salıb gəlmisən,
Üst-üstən yaralar alıb gəlmisən
Həyatın çeşidli savaşlarında.
Mən nələr görmədim baxışlarında...

## KİMSƏ GÖRƏ BİLMƏZ MƏN GÖRƏN SƏNİ

Hərdən şikayətim olsa da səndən,
Gözümdə hamıdan ucasan yenə.
Laqeyd görünərəm bəlkə də gendən,
Ancaq hamıdan çox yanaram sənə.

Bu olmamalıydın, sən bu deyildin,
Səni bu olmağa məcbur edən var.
Bəlkə də özünə qayıda bildin, -
Hə, sənin içində bir ayrı sən var!

Kimsə görə bilməz mən görən səni,
Kimsə mən biləni bilməyəcəkdir.
Nə zamansa sən də anlarsan məni,
O günə inamım ölməyəcəkdir.

## İÇİNİ AÇDIM

Mən heyrətə gəldim, - sənin dilində
Öz kəlməmi gördüm, sözümü gördüm.
Bu sirrlərlə dolu söz aləmində
Ən böyük bir sirrə çözümü gördüm.

Sən keçib gəldiyin ömür yolunda,
O hədər bildiyin ömür yolunda,
Ölüb-dirildiyin ömür yolunda
Mən öz ləpirimi, izimi gördüm.

Hər şeyə gözüm tox, bir sözə acdım,
Sənintək həmdəmə çoxdan möhtacdım,
Bir az qurdalayıb içini açdım,
Mən sənin içində özümü gördüm.

## *MEHPARƏ SƏYYAF*

Bağırova Mehparə Ağasadıq qızı 1955-ci ildə Maştağada ziyalı ailəsində anadan olmuşdur. 1973-cü ildə qəsəbədəki 187 saylı orta məktəbi bitirmiş, Bakı Pedaqoji texnikumuna daxil olmuşdur. Eyni zamanda Əbilov adına mədəniyyət evində modelyer-rəssam peşəsinə də yiyələnmişdir. Texnikumu fərqlənmə diplomu ilə bitirən Mehparə hələ tələbəlik illərində N.Həsənzadənin rəhbərliyi ilə fəaliyyət göstərən poeziya dərnəyində dinləyici kimi iştirak etmişdir. Hal-hazırda 21 nömrəli “Təbəssüm” uşaq sanatoriyasında pedaqoq-müəllim vəzifəsində çalışır.

### MƏHƏBBƏTİ AXTARMAYIN

Çox dərində axtarmayın, üzdə olur,
İlk sevgi də, məhəbbət də gözdə olur.
Həqiqəti imtahana çəkməyin ki,
Acılıq da, şirinlik də düzdə olur.

Məhəbbətin vurması var, bölməsi var,
Ünvanı var, dalanı var, döngəsi var.
Bəzisinin ürəyində yaşasa da,
Bəzisinin xəyalında özgəsi var.

Taleyi Tanrı öz hökmüylə yazır,
Baxma ki, hey səbr kasası daşır.
Gah yoluyla gedir, gah yolun azır,
Necə istəyirsə, qoyun yaşasın,
Məhəbbət yaşasın, sevgi yaşasın.

## BAHAR SEVİNCİ

Eşitdim bir körpə nəvəniz olub,
Bahar öz payını göndərib sizə.
Ürəyim sevinclə, fərəhlə dolub,
Qoy sevinc bəxş etsin ailənizə.

Üzündən təbəssüm əskik olmasın,
Nəvə sevincini dadandan sonra,
Özgə ləzzəti var çox yaşamağın,
Hələ toylarını görəndən sonra.

Bu qədər uşağın qayğısın çəkən,
Ey həkim, anamız Məleykə xanım.
Həyatda nəsibin xoşbəxtlik, uğur,
Bahar ömrün boyu bələdçin olsun.

Üzündən təbəssüm əskik olmasın,
Özü "Təbəssüm"ü yaşadan qadın.
Taleyin qəribə qisməti varmış,
Mənim də bu yurdda çəkilir adım.

## ƏSİL MƏHƏBBƏT

İnsanın qəlbində min arzusu var,
Məhəbbət olmasa, yaşamaq olmaz.
Küləyin xəzrisi, gilavarı var,
Təbiət olmasa, həyat da olmaz.

İlk sevgi anadan başlayır fəqət,
Sonrakı sevgi də qismətimizdir.
Məhəbbət yaşayır, yaşadır əlbət,
Onun ilk ünvanı ürəyimizdir.

Ürəkdə olmasa çılğın məhəbbət,
Dayanar, döyünməz, yatar saat tək.
Yaşamaq bir qara qəpiyə dəyməz
Ancaq başqa şeydir əsil məhəbbət.

İlahi bir sevgi gəzdir qəlbində,
Məncə, onda olmaz fikrin, qəmin də.
Əbədi deyildir hər insan ömrü
Bu gün öz evində, öz mənzilində.

## MÜƏLLİM ÖMRÜ

Necə əzəmətli, necə vüqarlı,
Necə hikmətlidir müəllim ömrü.
Necə dövlətlidir, necə də varlı,
Yanar bir ürəkdir müəllim ömrü.

İlk dəfə yazdırıb “ana” sözünü,
Anatək sevdirir sənə özünü.

Həyat yollarında ömrü uzunu
Zəhmətdir, əməkdir müəllim ömrü.

Heyranam ondakı eşqə, həvəsə,
Öyrədir elmini daim hər kəsə.
Bu boyda zəhmətə hədiyyə isə,
Bir dəstə çiçəkdir müəllim ömrü.

Həyat yollarında addımlayırsan,
Həmişə sən onu xatırlayırsan.
Sən onu ömrünə mayak sanırsan,
Hamıya örnəkdir müəllim ömrü.

## KÖRPƏ BEŞİYİ

Hər gül açılanda uşaq bilirəm,
Sevinmək, sevinmək istəyirəm mən.
Səhər açılanda oyaq bilirəm,
Yatdığım qaranlıq gecələri mən.

Bir uşaq görəndə gözlərim dolur,
Şirin bir nemətdir hər evdə uşaq.
Günlər bir çiçək tək soluxur, solur,
Çətindir uşaqsız evdə yaşamaq.

Özüm müəlliməm, tərbiyəçiyəm,
Sənətim uşaqla bağlıdır mənim.
Ən vacib varlığın həsrətindəyəm,
İşim həyatımla düz gəlmir mənim.

Baxırdım evimdə hər şey yerində,
Bir körpə beşiyi çatışmayırdı.
Nədi, söylə mənə günahım nədi,
Bunca il burnumun ucu göynədi.

Hər zaman Allaha şükr edirəm mən,
Odur bəxş eləyən mənə balamı.
Allah, özün saxla gözdən, nəzərdən,
Mənim oğul payım Əhməd balamı.

## SON ZƏNG

Bu gün məktəbi bitiririk biz,
Sevincə qarışıb qəm-kədərimiz.
Hər gün səsləyirdi bizi qoynuna,
Anatək sevimli, şən məktəbimiz.

Ayrılıq məqamı çətindən çətin,
Kövrəlib qəlbləri müəllimlərin.
Bir az da ağarıb saçları bu gün,
Qayğıkeş, mehriban müəllimlərin.

İllər arxasınca gətirir illər,
Hanı ötən ilim, ötən aylarım.
Şirin xatirəyə çevrilir illər,
Dil açır sinəmdə xoş arzularım.

Qayğılı günlərə səsləyir bizi,
Son zəngin vüqarla çalınan səsi.
Anatək sevirdik məktəbimizi,
O zəngin bir aləm, elm xəzinəsi.

Ey əziz dostlarım, müəllimlərim,
Bu gün heç yazmağa gəlməyir əlim.
Ancaq həsr edirəm bu şeirimi mən,
Son zəngin şəninə, əzəmətinə.

Bu sevgidə gözüm qaldı
Bu sevgidə gözüm qaldı,
Çox söhbətim, sözüm qaldı.
Hardan gəldi, hara getdi,
Yaşla dolu gözüm qaldı.

Bu sevgidə nələr vardı,
Sevinc vardı, kədər vardı.
Hardan gəldi, hara getdi,
O da bir dövlətdi, vardı.

Çoxum getdi, azım qaldı,
Qışım getdi, yazım qaldı.
Gözlərim gəzdi, axtardı,
Yetmədiyim arzum qaldı.

## MÜƏLLIM

Müəllim! Vüqarla səslənir adın,
Əziz şagirdinin şirin dilində.
Nurlu günəşisən bizim sabahın,
Sənə arxalanır doğma elin də.

Müəllim deyəndə dağ düşünürəm,
Zirvəsi həmişə dümağ qar olur.

Görmüşəm də bəzən də elə müəllim,
Qapqara saçları ağappaq olur.

İndi mən müəllim olsam da siztək,
Yenə də siz mənə müəllimsiniz.
Elə çalışaq ki, hər zaman gərək,
Şagirdçün xəcalət çəkməyəsiniz



## *SEHRAN ZİYAYİ*

Ağcabədi rayonunda anadan olub. Orta təhsilini Şuşada alıb. Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbini bitirib. Ədəbiyyata, xüsusən də poeziyaya böyük marağı var. Yazılarında vətənpərvərlik motivi daha qabarıqdır. "Paklıq", "Real-Press" qəzetlərində şeirləri və milli qəhrəman Mübariz İbrahimova həsr olunmuş poeması çap olunmuşdur.

### AZƏRBAYCAN DEYƏNDƏ

Əsir sərin küləklər,
Ətirlənir çiçəklər,
Nəğmə qoşur ürəklər
Azərbaycan deyəndə.

Sülhün səsi ucalır,
Dünyaya səda salır,
Millətim ilham alır.
Azərbaycan deyəndə.

Tanrıdan güc alırıq,
El yükün daşıyırıq,
Mehriban yaşayırıq
Azərbaycan deyəndə.

Buruqlar haray salır,
Aləm nura boyanır,
Xəzərim dalğalanır
Azərbaycan deyəndə.

Fərəhim aşıb-daşır,
Arzularım saflaşır,
Ömür də cavanlaşır
Azərbaycan deyəndə.

Üçrəngli bayrağımız,
Gözəldir dövranımız,
Fəxr edirik hamımız
Azərbaycan deyəndə.

## BİR ŞƏHİD SƏDASI

Düşmən od yağdırdı gecə üstümə,
Bir giliz son qoydu bahar fəslimə.
Anacan, çatmadın son nəfəsimə,
Bu oldu ay ana, fələyin qəsdi,
Ağlama, ağlama, ağlama, bəsdi.
Ağlamaq, ay ana, daha əbəsdi.

Bir övlad qoymuşam sənə yadigar,
Bir ömür yoldaşı, bir sevgili yar.
Mənim nişanəmi yaşat bəxtiyar,
Ömrümə bir acı ruzigar əsdi,
Ağlama, ağlama, ağlama, bəsdi.
Ağlamaq, ay ana, daha əbəsdi.

Ruhum narahatdır uca göylərdə,
Yurdumuz qalıbdır yadellilərdə.
Qələbə eşqi var mərd ürəklərdə,
Çəkilən əzablar bizlərə dərsdi.
Ağlama, ağlama, ağlama, bəsdi.
Ağlamaq, ay ana, daha əbəsdi.

Didərgin ellərin naləsi yetər,
Yurd həsrəti çəkmək hər dərddən betər.
El birləşə bilsə, bu nisgil bitər,
Bu, bizə Tanrıdan gələn bir səsdi.
Ağlama, ağlama, ağlama, bəsdi.
Ağlamaq, ay ana, daha əbəsdi.

## DƏNİZ - MƏNİM HƏYATIM

Qəlbim sıxılırdı, sahilə gəldim,
Gəldim ki, dənizlə danışım bir az.
Ötən günlərimi xatırlayaraq
Küskün taleyimlə barışım bir az.

Dənizə baxdıqca büllur bir şəfəq
Ömür yollarıma bir işıq saçdı.
Göstərib könlümə zərif bir ülfət,
Sənət ilhamıma bir cığır açdı.

Ləpələr çırpıldı üzümə mənim,
Yudu keçmişimin ağır yükünü.
Dalğalar açaraq hər səhifəni,
Saxladı ömrümün ən xoş gününü.

Elə bil yenidən gəncləşdi qəlbim,
Yeni arzularla coşdu indicə.
Həyatın mənasın duyduqca təbim,
Yepyeni nəğmələr qoşdu beləcə.

Sənə minnətdaram, ey əziz Tanrım,
Çünki inamımı mən səndən aldım.
Dənizi eylədin mənim həyatım,
Odur ilhamımı dənizdən aldım.

## HAQQINI HALAL ET, ANA

Aylarla, illərlə yuxusuz qaldın,
Gecələr sübhədək laylamı çaldın.
Ağrıyan canımın qadasın aldın,
Haqqını halal et, halal et, ana.

Tutub ətəyindən yıxıla-dura,
Böyüdüm, çatdım mən çox arzulara.
Sənə ölənəcən edəcəm dua,
Haqqını halal et, halal et, ana.

Dünyanı versələr, yerini verməz,
Tarix yaddaşından səni heç silməz,
Hər övlad ananın haqqını verməz,
Haqını halal et, halal et, ana.

Öpərəm doyunca qara gözündən,
Doymaram mən şirin, acı sözündən.
Baxıb nurlanıram nurlu üzündən,
Haqqını halal et, halal et, ana.

Analar müqəddəs, analar əziz,
Analar dərd çəkir bizdən xəbərsiz.
Analar qoyubdur ömrümüzdə iz,
Haqqını halal et, halal et, ana.

## DANIŞ

Ey vətən qeyrətli, müqəddəs şair,
Yurdun keşməkeşli kökündən danış.
İgid oğulların vətən eşqiylə
Şərəflə döyünən köksündən danış.

Öyrən sən tarixin qədim sirlərin,
Dərinlikdə yatan qərinələrin,
Əsrlərcə qalan xəzinələrin
Daş kitablardakı əksindən danış.

Bəhs elə xəlqinin böyüklüyündən,
Müdrik kəlamların güclülüyündən.
Nizami, Füzuli müdrikliyindən,
Natəvan sözünün nəqşindən danış.

Var Seyyid Əzimim, vardır Məhsətim,
Vidadi, Vaqif tək fikir vəhdətim.
Xətai qüdrətli söz səltənətim,
İgid sərkərdələr nəslindən danış.

Dövrümüz başqa cür olardı bizim,
Qəlbi durmasaydı Səmədimizin.
Susmasaydı dili Müşfiqimizin,
Onların yadigar irsindən danış.

Anası Nigardır, atası Rəsul,
İşində dayanıb daima məsul,
Anardır paylayan xalqına gur nur,
O dərin baxışlı gözündən danış.

Zamandan soraqdır bizim Bəxtiyar,
Şəffaf bir bulaqdır bizim Bəxtiyar,
Xalqına dayaqdır bizim Bəxtiyar,
Bəxtiyar aşiqin sözündən danış.

Ziyalı zəhməti getməz heç bada,
Yaşar öz ömrünü layiq bu ada.
Vətən sevgisiylə çatar murada,
Qəlblərdə yaşayan izindən danış.

Üzeyir ilhamlı sənətimizin,
Arifin, Qaranın, Fikrətimizin,
Muğamla köklənmiş musiqimizin
Dünyaya yayılan səsindən danış.

Ziyayiyəm, heç vaxt şöhrət gəzmərəm,
Vətəndən əlimi qəti üzmərəm.
El dərdin çəkməkdən bir an bezmərəm,
Vətəndaş şairin özündən danış.



## *MƏTANƏT*

Quliyeva Mətanət Ələkbər qızı 1973-cü ildə Maştağa qəsəbəsində anadan olmuşdur. Qəsəbədəki 128 saylı məktəbdə orta təhsil almışdır. Maştağadakı İmam Cəfəri Sadiq adına mədrəsədə 4 illik dini təhsil aldıqdan sonra Əhmədlidəki 2 illik ilahiyyat kurslarını bitirmişdir. 1999-cu ildən qəsəbədəki “Təbəssüm” uşaq sanatoriyasında kiçik tibb işçisi vəzifəsində çalışır.

Əsasən dini mövzuda yazır. Şeirləri “Paklıq” qəzetində çap olunub.

### ƏBƏLFƏZ

Müşkülə düşsə hər kim,
Səslər əlbət, “Əbəlfəz”.
İki dərya arası
Suya həsrət Əbəlfəz.

Ey yadigari-Heydər,
Ey məzhəri-şücaət.
Ey mədəni-məlahət,
Fəryadə gəl, Əbəlfəz.

Dərgahıva dəxilik,
Eylə bizə inayət.
Ver şiəyə şəfaət,
Rizvanə yaz, Əbəlfəz.

Can əldə xürdü kübar
Nitqi qurumuş, ağlar.
Dərgahda su tapılmaz,
Qan-yaş tökər Əbəlfəz.

Hərdən deyər səs gəldi,
Birdən dedi “balam vay”.
İki uzun qolları
Qələm olan Əbəlfəz.

## TƏBİƏT

Allah xəlq edibdir güldən xəmirimi,
Şeirimdə duyarsan yazın ətrini,
Təkcə zəmanədir qıran xətrimi,
Göy çəməndə güldən ötrü darıxdım.

Ürəyimdə dağlar boyda dağım var,
Hər arzumda lalələrdən bağım var,
O tərəfdə Qarabağ tək dağım var,
Dağdan axan seldən ötrü darıxdım.

Eldən ötrü dən düşübdür tellərə,
Göz yaşımla mən qovuşum sellərə,
Toy-büsatlar diləyərəm ellərə,
Qürbət olan eldən ötrü darıxdım.

Bu dövran gözəldir, yaşamaq gərək,
Arzusuz yaşasa, dayanar ürək.
Kökləsin sazını Ədalət görək,
Sədəf sazda teldən ötrü darıxdım.

## ANA

Uca bir varlıq tək durub önümdə,
Nurani camalı anamın mənim.
Dağ təki ucaymış, özüm-özümə
Deyirəm, amalı anamın mənim.

Yadımdadır, necə süfrə açardı,
Gözləri gülsəydi, kədər qaçardı.
Min dadlı xörəyin ətri yaşardı
Yavan çörəyində anamın mənim.

Şirin laylasında, üzgün səsində,
Min bir məna yaşar zümzüməsində,
Yuxusuz qaldığı hər gecəsində
Necə imiş əhvalı anamın mənim.

Qoymuşam üzümü məzar daşına,
Gücüm çatır ancaq gözüm yaşına,
Gör, nələr götürüb fələk başına
Qəbrinə qurbanam anamın mənim.

## ZƏHRA QIZIMA

Sən şalımsan, ipəyimsən,
Şirin arzum, diləyimsən.
Mənim vuran ürəyimsən,
Zəhra qızım, xanım qızım,
Bapbalaca, körpə quzum.

Bir balamsan ala gözlü,
Şən gülüşlüm, gülər üzlüm.
Qıvrım tellim, ay bənizlim,
Zəhra qızım, xanım qızım,
Bapbalaca, körpə quzum.



## *GÜLNARƏ ŞAMİ*

Bakıda doğulub. İranda dini təhsil alıb. Əsasən dini mövzuda və uşaqlar üçün kiçik şeirlər yazır.

## TƏNHA SÖYÜD

Tənha söyüd, niyə belə qəmlisən?
Pıçılda ki, sözsüz ahəng gözəldir!
Sən ərsəyə nəzərləmi gəlmisən?
Yeri göyə qatan həm göz, həm əldir.

Hardan gəldi, tellərini daradı
Baharın o kövrək nəsim yelləri?
Xəyallarım tənhalığı aradı,
Titrədi bir anda könül telləri.

Xışım-xışım xışıldadın rüzgarla,
Cilvələrin məni alıb apardı.
Anladım ki, sən gözəlsən o yarla,
Tənhalığım məni səndən qopardı.



## *UTARİDA ƏSƏD*

Utarida Əsəd qızı Rəhimova 1947-ci il Maştağa qəsəbəsində həkim ailəsində anadan olmuşdur. 1965-ci ildə 128 saylı orta məktəbi, 1972-ci ildə APİ-nin (ADPU) dil-ədəbiyyat fakültəsini bitirmişdir. 1969-95-ci illərdə 187 saylı məktəbdə müəllim işləmiş, 1995-ci ildən hal-hazıra kimi 255 saylı məktəbdə çalışır.

Tələbəlik illərində ilk şeirləri "Gənc müəllim" qəzetində dərc edilmiş, sonralar "Vışka", "Azərbaycan müəllimi", "Azad Azərbaycan" və s. qəzetlərdə müntəzəm çap olunmağa başlamışdır. 2010-cu ildə "Xəyallar dənizi" adlı şeirlər kitabı nəşr edilmişdir.

## İNSAN GƏLİR DÜNYAYA

Allah-Təala insanı dünyaya gətirəndə sevinci də, kədəri də bərabər bölüb onun taleyinə yazır. Doğulan insan hələ bilmir ki, onu nələr gözləyir. Əgər bilsəydi, elə ondaca ürəyi partlayıb ölərdi. Dünyaya qədəm qoyan insan özünü dərk etməyə başlayanda xəbis, dargöz, paxıl, riyakar insanlarla qarşılaşır. Artıq onun həyatında sevincli günlər də azalmağa başlayır. Fikir, qəm onu izləməyə başlayır. Bir addım irəli getməyə, xoşbəxt olmağa çalışanda, xəbis, paxıl insanların əməllərilə uçuruma yuvarlanır. Onda məyus olur, qolu-qanadı sınmış quşa bənzəyir, nə edəcəyini bilmir. Ələlxüsus tək olan, heç kəsə ümidi gəlməyən insanlar belə vəziyyətə düşür. Həystı bədbəxtlik üzərində qurulan insan ruhdan

düşür. Həyat onun üçün mənasız olur. Əli heç bir şeyə çatmayan insanın bircə gümanı Allahı olur. Əlini Allahın dərgahına uzadıb imdad istəyir. Allahım, mənim nə idi günahım? Mənə bu qədər kədər, qəm vermisən. Sevinci mənə damla-damla, kədəri isə başıma yağıştək tökmüsən. Niyə, nəyə görə xoşbəxtliyi tac edib mənə pislik edənlərin başlarına qoymusan?

Görən, nə imiş mənim günahım?
Heç kəsə gəlməyir mənim pənahım,
Qəlbim kibritsiz də od tutub yanır,
Özümü yandırır mənim öz ahım.

Həmdəmim dörd divar olubdur mənim,
Dünya həyatıma kəsilib qənim.
O qədər acı gün görmüşəm deyə,
Yaxşı gün görməyə deyiləm əmin.

Deyirlər, Allah hamını görəndir. Xoşbəxtlikdən, haram qazancdan aşıb-daşan, özünə yer tapmayıb, heç kəsə əl uzatmayan, heç kəsin könlünü almayan, insanların həmişə qəlbini qıranlara budur Sənin hörmətin? Elə bil, dərgahlardan səda gəlir. “Ey bəndəm! Mən sənə də xoş günlər, firavan həyat bəxş etmişdim, lakin bəzi insani xüsusiyyətlərdən kənar olan xəbis insanlardır ki, sənin xoşbəxtliyini özlərinə calayıblar. Sənin pis günün üçün nələrdən keçməyiblər? Onlar hələ hiss etməyiblər ki, onlara artıqlıq edən sevinc payı onların deyil, səbrli ol. Məğrur, dəyanətli ol! Axirət günü həmin insanlar öz sevinclərindən məhrum olacaqlar. Elədikləri pisliklərin cəzasını çəkəcəklər. Pislik etdikləri insanların qarşısında

qul olacaqlar. Onlar da sənin kimi əllərini Allahın dərgahına uzadıb imdad istəyəcəklər o zaman. “Keç günahımdan, ya Rəbbim” deyəcəklər. Amma artıq gec olacaq. Elədikləri əməllərə görə alışıb yanacaqlar.”

## PAYIZ SİMFONİYASI

Payızın son ayı. Dekabr ayı. İlin son günləri. Payızın son akkordları. Ağacların bəzisi yarpaqlarını töküb, bəzisi isə hələ də öz qızılı libaslarından əl çəkmək istəmir. Sanki soyuqdan, şaxtadan özünü qorumaq üçün libaslarını bərk-bərk özünə sıxır. Fəqət mümkün deyil. Əgər o yarpaqlar cücərib böyüyübsə, öz vaxtını bitiribsə, mütləq töküləcək. Günəş zərif şəfəqlərini yığıb çox-çox uzaqlara üz tutur. Xəfif, bəzən də güclü küləklər ovuclarındakı son yarpaqları bir-birinə çırparaq, sanki vida nəğməsi oxuyur. Qəmli bir simfoniya ətrafa yayılır. Ayaqlar altında qalan xəzəllər sanki insanlardan mərhəmət istəyir. Topa-topa qalaqlanmış yarpaqları kibritlə yandırdıqda məyus olub sarı alov şöləsini seyr edən ağac deyir: “Dünənəcən yamyaşıl yaraqlarım altında yeyib-içən, istirahət edən insanlar siz deyildinizmi? Sizə qızmar günəşin şüalarından çətir tutan mənim yarpaqlarım deyildimi? Məni nə tez unutdunuz? Budurmu sizin vəfanız?

...Təbiətlə insanlar arasında bir uyğunluq, harmoniya var. Uşaqlıq (bahar), gənclik (yay), orta yaş dövrü (payız), ahıl çağı (qış) dövrünə təsadüf edir. Amma burada da nə isə bir paradoks var. Qışda insanlar isti geyimlərini geyəndə, ağaclar soyunur. Onlar qışın şaxtasını, qırovunu özünə çəkir, sanki qüvvət toplayır gələn bahara

qədər. Fəqət insan ömrünü geri qaytarmaq olmur. İnsan ömründən qopan qızılı kərpiclər xıncım-xıncım olur. Yaşı insan ömründən uzun olan tut ağacına baxanda nələr düşünmürəm. Keçən günlər kino lenti kimi gözümün önündən gəlib keçir. Sən kimləri görməmisən? Kimləri yola salmamısan? Yenə də başını dik tutub əngin səmalara baxırsan. Sizə qibtə edirəm. Fikirdən, dərddən, paxıllıqdan, riyadan, tamahdan uzaq olan, ağaclar. Dadlı-tamlı meyvələriniz neçə-neçə insanların evinə sovqat gedəndə sevinirsiniz. O böyük ürəyinizə qibtə edirəm. Kaş ki, insanlar da sizin kimi bir qəlbə malik olaydılar.

Görən, niyə payız gələndə insanlar kədərlənir? Çünki ilin bu fəslində insanların qəlbi payız kimi təlatümlü olur; tutqun hava, bomboz səma insanın ruhunda ehtiva edir, yağan yağış onun qəlbinə yağır, qəm karvanı yol alıb gedir, həzin bir musiqi ətrafa yayılır. Musiqisi, sözləri eyni müəllifə aid olan bu melodiya insanı yerdən alıb əngin səmalara qaldırır. Orada son akkordlarını vurub sonsuzluğa qovuşur. Budur, payızın, insanın qəmli simfoniyası...

...Bir neçə aydan sonra bu simfoniya bitəcək, şaqraq, nikbin bir melodiya başlayacaq. Bahar gələcək. Günəşin zərrin şəfəqləri, quşların şən nəğməsi ətrafa yayılacaq. Ağaclar yenidən yaşıl köynəyini geyəcək, insanların istirahəti üçün çətirə dönəcək. Bahar müjdəçiləri nəğmələr oxuyaraq, sanki deyəcək - “Həyat davam edir, qəmlənməyi, sevinməyi bizdən öyrənin...”

... Budur, həyatın qanunauyğunluğu...

## *PÜNHAN SƏDA*

Axundzadə Nəzakət Mehdi qızı (Pünhan Səda) 1960-cı ildə Maştağada ziyalı ailəsində anadan olmuşdur. 1978-ci ildə 128 saylı orta məktəbi bitirmişdir. Şeirləri və kiçik həcmli nəsr əsərləri dövri mətbuatda, o cümlədən "Azərbaycan" jurnalında, "Nəbz", "Paklıq" və s. qəzetlərdə çap olunmuşdur. "Bir yağış istəyirəm" adlı ilk kitabı 2003-cü ildə xalq yazıçısı, professor Ə.Cəfərzadənin rəyi ilə işıq üzü görmüşdür. 2008-ci ildə "Gəl, açılsın da sabah" adı ikinci kitabı çapdan çıxmışdır. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

## RƏSUL RZA

Önümdə bir kitab var: Rəsul Rza "Sabir sağ olsaydı", Anar "Molla Nəsrəddin–dünən bu gün". Ön sözün müəllifi Rəfael Hüseynovun sözlərilə desək, necə olmamağı və necə olmağı öyrədən dərs kitabı, gülə-gülə oxunan kitab, ağrıya-ağrıya, ağrıda-ağrıda oxunan kitab. Millət kitabı. Rəsul Rza və Anar–yazıya başlamaq məqamında bu iki ədib haqqında düşüncələrimi fikrimdə cəm edərkən nə vaxtsa "Azərbaycan" jurnalında oxuduğum bir yazı yaddaşımda canlandı. Jurnalın "Ədəbi əlaqələr" bölümündə Ə.Rəsulovun "Azərbaycan türk yazarlarının gözü ilə" məqaləsində məşhur türk publisisti M.C.Andayın "Anadoluda və sosialist ölkələrində" adlı səyahət oçerkləri kitabından misal götürülmüş bir məqam Rəsul Rza yaradıcılığının əlçatmazlığı, Rəsul Rza qələminin

qüdrətini, Rəsul Rza şəxsiyyətinin aliliyini bir daha təsdiq edir:

“Moskovaya vardığımız gün sormuşdum:

-Sovetlər birliyinin şimdi ən ünlü ozanı kimdir?

Bir az düşündükdən sonra:

-Rəsul Rza - demişlərdi.”

Ədibin Rəsul Rza haqqında ötən əsrin 60-cı illərində Sovet imperiyasının tüğyan etdiyi bir zamanda imperiyanın mərkəzində Moskvada rus yazarlarının öz dilindən aldığı bu ifadəni iftixarla öz kitabında işlətməsi bizim qəlbimizi də qürurlandırmaya bilmir.

Bizim nəslin nümayəndələrinin Rəsul Rza yaradıcılığı ilk tanışlığı “Lenin” poeması vasitəsilə olmuşdur. O zamankı ruhda tərbiyə alan hər bir çalışqan məktəblinin sevə-sevə oxuyub əzbərlədiyi bu poema indi də hafizəmizdə həkk olunmuşdur. Amma Rəsul Rzanı daha yaxından tanımağıma Anarın “Sizsiz”i kömək etdi. “Sizsiz”dən köçürdüyüm Rəsul Rzanın, Nigar xanımın şeirlərindən nümunələr indi də vərəqləri saralmış bloknotumda durur.

Rəsul Rzanın novatorluğu şeirə, poeziyaya gətirdiyi yeni üslub, yeni tərzdən ibarət idi. Doğrudur, sinəsi qəzəl, qoşma, gəraylılarla çağlayan xalqın qulağı əruza, hecaya alışdığından, sərbəst şeir öz müəllifinin yollarını yetərincə daşlı-kəsəkli etdi. Amma Rəsul Rza şeirinin sadə, anlaşıqlı xalq dili ətrafında ona qarşı olan ab-havanı təmizləməkdə, ayağı altına diyirlənən daş-kəsəyi dəf etməkdə ona yardımçı oldu.

Torpaq bomboz
elə bil ki, üzünə
dəmrov düşüb.

Bir yanda cadar-cadar,
bir yanda doxsan yaşlı
qoca üzü kimi
büzüşüb.

Dövrün haqsızlıqlarından, acılıqlarından ağzı acı dad almış, Anarın təbirincə desək (“Sizsiz”), bu acıdil ədibin şeirindəki şirinlik oxucunu özünə cəlb etdi. Axı torpağın təsvirini bundan da güclü, bundan da gözəl necə vermək olardı.

Azərbaycan poeziyasında öz xüsusi yeri olan fəlsəfi-lirik şeirin öncül yazarlarından biri də Rəsul Rza olmuşdur. Ümumiyyətlə, Rəsul Rza yaradıcılığı fəlsəfi poeziya nümunələri ilə zəngindir desək, bəlkə də təkrara yol vermiş olarıq. Amma bu, belədir. Hələ Sovet dövründə Azərbaycan lirik şeirinə fəlsəfi cərəyanın daşıyıcıları sayılan şairlər içərisində Rəsul Rzanın yeri əvəzedilməzdir.

Və bir də Sabir məktəbinin müdavimi Rəsul Rza vardı. “Şairəm, dövrümün ayinəsiyəm” deyən Sabirin davamçısı olmaq Rəsul Rza qələminin qüdrətindən, Rəsul Rza şeirinin kəsərliyindən xəbər verirdi. Rəsul Rza özünün dediyi kimi, “olar-olmaz” çərçivəsindən (“Darısqallıq”) çıxmağı bacaran bir şair idi. “Təsbeh dənəsi kimi bir-birinə bənzəyən şeirlərdən” (“Mənim arzum”) yaxa qurtarmağa can atan şair darğasız şeir-sənət, azad, ləkəsiz sevgi, könül dolusu sevinc, nəsrin, nəzmin hər sətrində qəlbin çırpıntısını, nəbzin döyüntüsünü eşitmək istəyir.

Kitabı vərəqlədikcə şairin bir-birindən mənalı şeirləri insanı buraxmır, xüsusi bir qüvvə ilə dəfələrlə oxumağa məcbur edir. “Qaranquş və sərçə”, “Qoca timsah” şeirləri alleqorik olmaqla yanaşı, həm də dərin siyasi-fəlsəfi

mәna kәsb edәn şeirlәrdir. Hәr iki şeirdә qoyulan mövzu bu günün özündә dә aktualdır. Yaxud başqa bir misal. İndi mәgәr “tapşırıqlı mәrdimәzar”, yaxud “bәzi bәziçi” yoxdur? “Sabir sağ olsaydı” qeydi altında yazılan şeirlәrdә sabiranәlik daha çox hiss olunur. Xüsusilә “Qorxuram”, “Qora ikәn mövüc olanlar” şeirlәrindә. Ümumilikdә götürsәk, Rәsul Rzanın әksәr şeirlәrindә Sabir nәfәsi duyulur, amma şair satiranı öz tәrzi, öz dәsti-xәtti ilә yazır. Sabir cığırı ilә gedir, lakin Sabiri tәkrar etmir. Sabir dövrünün eybәcәrliklәri Rәsul Rza dövründә dә yox deyil. Şair bunları satira atәşinә tutur, amma Rәsul Rza dilindә; sığalsız, әnlik-kirşansız.

Kitabın әsas qayәsi bu dörd ustad sәnәtkarı - hәr biri öz dövrünün böyük mütәfәkkiri olan Mirzә Cәlil, Sabir, Rәsul Rza, Anarı bir kitabda görüşdürmәk idisә, bu mәqsәd uğurla nәticәlәnmişdir. Mirzә Cәlilin “Molla Nәsrәddin”i Mirzә Әlәkbәri Sabir kimi sevdirdiyindәn, Sabiri Mirzә Cәlilsiz tәsәvvür etmәk qeyri-mümkündür. Eyni zamanda Sabiri “yeni Azәrbaycan şeirinin böyük yaradıcısı, Sabir yolunu isә nәinki Azәrbaycan әdәbiyyatında yeni bir yol, ümumilikdә bir çox millәtlәrin әdәbiyyatına görә inqilab” adlandıran Rәsul Rzanı da Sabirsiz tәsәvvür etmәk mümkünsüzdür. Rәsul Rzanı “Sabir sağ olsaydı” demәyә sövq edәn cәmiyyәtdәki çatışmazlıqlar, cәmiyyәtin eybәcәrliklәri islah olunanadәk normal düşünәn hәr bir beyin sahibini “Rәsul Rza sağ olsaydı” demәyә vadar edәcәk.

Anarı isә bu üç sәlәfsiz tәsәvvür etmәk olmur. Heç bir mübaliğәyә yol vermәdәn demәliyik ki, Anar müasir nәsrin Rәsul Rzasıdır. Amma öz üslubundaca, öz tәrzindәcә, tәkrarsız-filansız. Anarın Azәrbaycan әdәbiyyatı

tarixində ən böyük xidmətlərindən biri ədəbiyyatımızı "Molla Nəsrəddin"siz qoymamağı oldu. Ədibin felyetonlarını oxuyan hər kəs ölməz Mirzə Cəlil nəfəsini, ruhunu duyur, onun səsini eşidir. Bu felyetonlarda Mirzə Cəlil Anar dilində danışır. Mirzə Cəlil 1932-ci ildə dünyasını dəyişmişdir. Anarın "Ürəyim ağrayır" adlı ilk hekayəsi isə 1958-ci ildə yazılıb. Cəmi 26 il. Tarix üçün bu çox da uzun müddət deyil. Sanki 26 ildən sonra "Molla Nəsrəddin"in yeni cücərtiləri torpaq altından baş qaldırmağa başladı. 1966-cı ildə isə "MollaNəsrəddin – 66" Mirzə Cəlili yenidən dünyaya gətirdi. Istər Cəlil Məmmədquluzadə, istər Sabir, istər Rəsul Rza, istərsə də Anar–onların dördü də elə insanlardan, elə hadisələrdən yazmışlar ki, bunu hər kəs görə bilərdi və görürdü, amma məhz bu ədiblər yazmışlar bu hadisələri, bu hadisələrdəki eybəcərlikləri. Hamı bilir, filankəs rüşvət alır, hamı bilir, filankəs süründürməçidir, bürokratdır, mənsəbpərəstdir, yaltaqdır, saxtakardır, böhtançıdır və s. Hamı bilir, amma dinmir. Ya dinməyə iqtidarı çatmır, ya dinir, lakin kütləyə çatdıra bilmir. Sənətkarın böyüklüyü ondadır ki, bütün təhlükələri göz önünə alaraq sözünü deməyə özündə qüdrət tapır. Anar tarixi romanlar yazan bir yazıçı, sevgi pyesləri yazan bir dramaturq, Rəsul Rza uzun-uzadı poemalar yazan bir şair, Sabir öz dövrünə müvafiq güldən, bülbüldən yazan qəzəlxan, mərsiyələr yazan növhəzən, Cəlil Məmmədquluzadə isə zəmanəsinin meşşan həyatını tərənnüm edən jurnallar nəşr etdirən naşir ola bilərdi. Amma bu dörd ədibin heç biri hər kəsin edə biləcəyini etmədi, hər kəsin getdiyi yolla getmədi. Məhz heç kimin edə bilməyəcəyini etdilər, heç kəsin cürət edib gedə bilməyəcəyi yolu getdilər.

Onlar dördü də - Cəlil Məmmədquluzadə “Ah, unudulmuş vətən”, “Ah, yazıq vətən”, “Ah, gözəl Azərbaycan vətənim, harda qalmısan?” deyərək alışa-alışa, Sabir “Daş qəlbli insanları neylərdin, ilahi?” sora-sora, Rəsul Rza “Neyləyim ki, belə kür taleyim var, məni nadanlara ürcah eylədi” söylənə-söylənə, Anar “Cəlil Məmmədquluzadə babalarımızın, atalarımızın, bizim mənəvi yaşıdımız idi. Bizim nəsil də gedəcək, hamımız öləcəyik, amma o qalacaq və oğlumun, nəvəmin yaşıdı olacaq” deyə-deyə bu yolun yolçusu oldular. Həqiqət yolunun yolçuları. Bu yol isə ucalığa, aydınlığa gedən yoldur.

## O MƏNİM ANAM İDİ...

Yazıya başlamazdan əvvəl fikrimdə bəzəkli-düzəkli sözlər, təmtəraqlı cümlələr tərtib etdiyimdən, fikirləşirdim ki, çox gözəl bir yazı alınacaq. Amma əlimə qələm alan kimi həmin sözlər, həmin cümlələr avtomatik olaraq beynimdən silindi. Qəribə idi, günlərdən bəri içimə dolub yazılmasına hazır duran sözləri, kəlmələri yaddaşımın bataqlığından çəkib çıxara bilmirdim. Bəlkə də bu, ona görə idi ki, haqqında yazacağım şəxs hər cür bəzək-düzəkdən, hər cür təmtəraqdan, dəbdəbədən uzaq bir şəxsiyyət idi. Bəli, sözün əsil mənasında şəxsiyyət. Bu səbəbdən çox sadədən sadə, beynimdə yaranan ilk cümləni sərlövhə seçdim: “O, mənim anam idi...”

İlk görüşümüzdən son görüşümüzə qədər hər bir hadisə, hər bir an belə yadımdan çıxmayıb, çıxmayacaq da. Havaların yaxşı keçdiyi vaxtlarda hər həftə görüşürdük. Hər bir görüş mənim üçün Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatının səhifə-səhifə vərəqlənməsi

demək idi. Hər görüş unudulmaz idi, hər görüş möhtəşəm idi. Bu görüşlərin hər birindən nələr yazmaq olmazdı?! Amma nədənsə ilk və son görüşümüzdən yazmaq keçdi qəlbimdən...

...Təsadüfdən ilk görüşümüz Əzizə xanımın ad gününə düşmüşdü. Əzizə xanımın hər kəsin üzünə açıq olan qapısından içəri girən anda özümün sehrli aləmə düşdüyümü zənn etdim. Sehrli otaq, sehrli əşyalar və bunların əhatəsində sehrli ağsaçlı pəri! Mənimlə gedən xanım dil-boğaza qoymadan dil-dil ötürdü. Qadın sözünə ara verən kimi anam:

-Qızım, danış görüm, niyə gəlmisən, hardan gəlmisən? – deyə məni dilləndirdi.

Bütün cəsarətimi toplayıb, həyəcanımı boğmağa çalışa-çalışa haradan gəldiyimi, gəlişimin səbəbini söylədim.

-Qızım, gözüm yenicə əməliyyatdan çıxıb. Həkimlər yazıya baxmağa icazə vermirlər. Narahat olma, dəftəri qoy get, - anam dəftəri məndən alıb vərəqləyərək ona ötəri nəzər saldı.

Sonda bayatılarımı görüb:

-Bayatı da yazırsan?–deyə soruşdu.

-Hərdənbir olur–dedim və otağa girəndən bəri beynimdə yaranıb cövlan edən bir bayatını deməyə ondan icazə istədim.

-Buyur, buyur, qızım, bu nə sözdür?

Anamın iznindən sonra bayatını söylədim:

Bu gün nədir? – Ərəfə!
Qibləm Məkkə tərəfə.
Can qurban kəsiləydi
Anam gələn tərəfə!

Bayatını dinləyən anamın gözlərində sanki bir cüt günəş parladı. Əvvəllər bu parıltını televiziya verilişlərini seyr edərkən ekranın bu tayından görürdümsə, indi əyani şəkildə, üzbəsurət gördüyüm üçün özümü dünyanın xoşbəxti sanırdım.

Qəribəsi budur ki, anamla son görüşümüzdə də bir bayatı söyləmişdim. Daha doğrusu, son görüşdən əvvəlki görüşdə, xəstəxanada. Bayatı belə idi:

Dəryalar züm-züm, anam.
Qol atım, üzüm, anam.
Yanına gec gəlmişəm
Qaradır üzüm, anam.

Bayatını eşidən Əzizə ana xəstəliyinə uyuşmayan bir coşquyla:

-Ayıb, ayıb, qızım!–dedi–sən kənddə, mən şəhərdə, gediş-gəliş, çətinlik.

Amma gec gəlməyimin səbəbi çətinlik, yaxud yolun uzaqlığı deyildi. Məsələ anamın xəstəxanaya düşmək xəbərini gec eşitməyimdə idi. Bu bayatı isə Əzizə ananın məndən eşitdiyi son bayatı oldu...

Əzizə xanımın xəstəxanadan çıxdığını eşidib evə yoluxmağa getdiyim zaman o bulaq kimi çağlayan, həyat eşqi ilə dolu Əzizə anamdan əsər-əlamət görmədim. Sakit, səssiz oturmuşdu oturduğu yerdə. Birdən özlüyümdə onu kükrəyib-kükrəyib sakitləşmiş vulkana, tufandan, fırtınadan çıxmış dənizə bənzətdim. Sanki vulkandan sonra içində nə vardısa atmış, sakitləşmiş dağ idi nəzərimdə anam. Amma yox! Sən demə, hələ narahatçılığı var imiş anamın.

-Əzizə xanım, niyə susursunuz? Nə düşünürsünüz? – sualıma anam:

-Qorxuram, ölümdən qorxuram–dedi.

-Ay ana, ölüm nədir?–deyib söhbətin səmtini dəyişmək üçün zarafata keçdim.

Həmişə zarafatlaşdığımız anlarda anamın gözlərində bərq vuran və ona çox yaraşan coşqu bir anlığa yanıb söndü. Baxışlar yenidən öz dalğınlığına qayıtdı:

-Qorxum işlərimin yarımçıq qalmağındandır. Onsuz da hamımızın bir can borcumuz var.

Anamın sözləri titrətdi məni. Aman Allah, necə də səhv etmişəm. Sən demə, o, nə vulkandan sonra sakitləşmiş dağ, nə də tufandan çıxmış yorğun dəniz imiş. O, sözün əsil mənasında qoynu nadir tapıntılarla zəngin möhtəşəm bir dağ, təki qənirsiz incilərlə dolu əvəzsiz dəfinələr saxlayan, əzəmətli dalğalarla çağlayan ucsuz-bucaqsız bir ümman imiş. Əzizə anam Ulu Pərvərdigarın doğma Azərbaycanımıza bəxş elədiyi misilsiz bir möcüzəsi idi.

Əvvəllər deyərdilər, bahar yer üzünə pərilərin qanadlarında gəlir. Anam, baharın əlindən tutub o çərşənbədən bu çərşənbəyə çatdıran nurani bir pəri idi. Illər keçir. Yay yazı, qış payızı əvəzlədikcə fəsillər dəyişir, ay ayı qovur, il ilə qovuşur. Yenə yer üzünə bahar gəlir. Amma gələn hər bahar qışın soyuğunu, sazağını isitməkdə çətinlik çəkir. Çünki indi baharları pəri qızları gətirmirlər. Və bu baharların əsdirdiyi rüzgarlar da pərilərin nəfəsləri ilə isinmirlər. Çünki baharı yer üzünə gətirən sonuncu pəri artıq səkkiz ildir ki, bu dünyanı tərk edib və O, mənim anam idi...

# SƏNİ SEVMƏK ÜÇÜN GƏLDİM DÜNYAYA!

"Mən səni sevirəm!" Cəmi-cümlətanı üççə kəlmədən ibarət olan bu kiçik cümlə dinindən, dilindən, irqindən, millətindən asılı olmayaraq bütün sevgililərin "qəlb" adlanan dünyasına daxil olmaq üçün bir vasitə, həmin dünyanın bağlı qapılarının "Sim-sim, açıl!" deyərək açacaq bir qüdrətə malik hər kəsin bildiyi gizli bir paroldur. Gizlidir ona görə ki, sevgi gizli, xəlvəti, dəruni hisslərin təzahürüdür. Bu parol "Mən səni sevirəm" şəklində deyilənə qədər şəkildən-şəklə düşür. "Mən səni sevirəm!" demək üçün O olmalıdır. Və bu "o" elə böyüklükdə olmalıdır nəzərində ki, onun fövqündə Yer, Göy-Asiman, canlı-cansız ALƏM öz böyüklüyünü itirsin. Belə ki, sən ancaq "O"nu görürsən, "O"nu düşünürsən, "O"nu eşitmək istəyirsən. Əvvəl ehtiyatla "Onu sevirəm!", sonra qəlbinin bütün cəsarətilə "Mən onu sevirəm" deyirsən. Çünki

Gözlərdən gözlərə salınan körpü,
Daşıyır eşq yükü, məhəbbət yükü.

Aşiqin gizli-gizli tək daşıdığı eşq yükü o qədər ağır olur ki, zaman gəlir onu ikinci bir şəxslə - sevdiyi bir kəslə bölməyə, bu yükü onunla birlikdə daşımağa ehtiyacı olur.

İndi mən qəlbimin bütün cəsarətini toplayaraq memarı qəlbim, mühəndisi beynim olan, gözlərimdən gözlərinə qədər salınan dünyanın bu ən ülvi, ən pak körpüsündən keçərkən, ahlarla, oflarla daşıdığım bu eşq yükünü çəkməkdə sənin köməyinə ehtiyac duydum. Çünki qəl-

bimin tam əminliyilə dərk etdim ki, səni sevmək üçün gəldim dünyaya.

Sənsiz gecələrin acısını, sənli gündüzlərin şirinliyi unutdursaydı, nə gözəl olardı. Amma yenə ümidimi itirmirəm, çünki hər halda hər sənsiz gecənin sonu, bir sənli nurlu sabaha açılır. Sənin xəyalınla keçirdiyim hər sənsiz gecə özüm-özümü inandırıram ki, sənin mövcud olduğun sənli səhərdə səni görəcəyəm, qəlbimin dərinliyində qoruduğum bu sözləri qəlbimin aynasına həkk edəcəyəm: “Səni sevmək üçün gəldim dünyaya!”

Hər gün səninlə qarşılaşdığım məkana gələnə qədər günəş daha parlaq olur, ətraf daha işıqlı, insanlar kimliyindən asılı olmayaraq daha nurlu, daha mehriban olur gözümdə. Yol boyu qarşılaşdığım adi, tanımadığım insanlara belə müjdəverici bir sevinclə hayqırıb bildirmək istəyirəm: “Onu görməyə, sevdiyim insanı görməyə gedirəm.” Bu eyni hal hər gün baş verir. Bu sevinci, bu fərəhi sən yaşadırsan mənə. Bax, elə bu anın özündə “Səni sevmək üçün gəldim dünyaya” demək istəyirəm sənə.

Amma nədənsə səni görüncə nitqim tutulur, dilim kilidlənir, sənə deyəcəyim, demək istədiyim bütün sözlər qəlb səltənətimdən çıxa bilmir.

Bu necə sirdirsə, ey zərif gülüm,
Səni görən zaman lal olur dilim.
Oxu bircə-bircə, ay ömrüm-günüm,
Qəlbimin yazılı varağıdır göz.

Bircə baxışın ruhuma sığal, bircə gülüşün qəlbimə məlhəmdir. Dünyamı qaraldar qaşın çatımı. O zaman demək istəyirəm

Kaş günəşin zərrəsindən ayrılan
Atəş olam, kədərinə od vuram.

Çünki

Uca dağın zirvəsi sən, yolu mən,
Bağ-bağçanın ağacı sən, kolu mən.
Bu dünyanın ağası sən, qulu mən.
Əfsanəni sənin eşqin yaratdı.

Dünyanın məlum məhəbbət dastanları içində ən ülvi, ən pak, ən mükəmməl yazılmamış bir dastandır sənə olan sevgim. Amma sənə olan diləklərimi hələ də gizli-gizli keçirirəm qəlbimdən.

Sənə olan sevgim ruhumun qidası, qəlbimin pünhan bir sədasıdır. Çünki qəlbimdən gələn bu əzəli, əbədi susmayan hələlik pıçıltı qədər kövrək, eşidilməyəcək qədər zəif olan bu səs vaxt gələcək güclənəcək. Bulaq kimi çağlayacaq, qəlbimdən dilimə süzülüb “Səni sevmək üçün gəldim dünyaya!” deyəcək. Inanıram, bu gün gələcək!

Amma kaş ki, günlərin birində sənin də dilindən eşidəydim:

“Səni sevmək üçün gəldim dünyaya!”
“Səni sevmək üçün gəldim dünyaya!

## MƏN SƏNİ SEÇDİM Kİ...

Mən səni seçdim. Seçdim ki, həyatın dik yoxuşunu, sərt enişlərini keçərkən yanımda olasan. Həyat girişi asan, çıxışı min bir sirli olaylarla dolu olan labirintə bənzər. Bu sirli-sehrli labirintin dönəmlərini adlayıb nura aparan yolu

axtararkən insanın yanında kiminsə olması onu mənən mətinləşdirir. “Sən tək deyilsən, mən səninləyəm” ifadəsinin insan həyatındakı əhəmiyyəti ölçüyəgəlməzdir.

Dizlərin qanaya-qanaya, dişinlə-dırnağınla ömrün yoxuşuna qalxarkən qurumuş kol-kos, xırdaca daş-kəsək axtaran zaman köməyə uzanan əli görüb “ver əlini” səsini eşidən an həyat necə də gözəlləşir, ömür necə şirinləşir! Bu gözəlliyi görmək, bu şirinliyi duymaq bütün acıları unutdurur sənə!..

...Mən səni seçdim ki, qəlbimin odunu, ürəyimin hərarətini səninlə paylaşım. Səni seçdim ki, soyuq ocağını qəlbimin odu ilə yandırım, üşüyən qəlbini ürəyimin hərarətilə isidim. Dünyanın bir üzü gündüzdürsə, bir üzü gecədir. Gecə gündüzü arzuladığı kimi arzula məni. Yetər ki, arzulayasan məni! O vaxt qəlbimi Dünyanın Günəşinə çevirib səni nura qərq edərəm!..

...Mən səni seçdim ki, sənlə bölüşüm dərya qədər sevincimi, zərrə qədər kədərimi. Səni seçdim ki, hər uğurumu, hər nailiyyətimi əldə edərkən sən yanımda olasan. Bu uğurdan duyduğum sevinci ilk əvvəl sən görəsən. Bu dərya sevincdən qucaq-qucaq sənə pay verim. Ulduzların sevincini birgə seyr edək, göylərin alqışına birgə cavab verək.

...Mən səni seçdim ki, Günəş daha parlaq olsun, Ay daha nurlu, ulduzlar daha əsrarəngiz olsunlar. Səni seçdim ki, bu seçimdən vəcdə gələn ulduzlar sevinsin, çiçəklər gülsün. Ulduzlar halay qursun, çiçəklər dəstələnsin, ulduzlara peyğam göndərilmək üçün mələklər bu şadyanalığa seyrçi olsun.

...Mən səni seçdim ki, ləpələrin pıçıltısını, dalğaların ötüşməsini, sahillə dənizin öpüşməsini birgə seyr edək:

Seyr edək suların ötüşməsini,
Sahillə dalğanın öpüşməsini.
Unudaq dünyanın yaxşı-pisini,
Başım üstə göylər, önümdə dəniz,
Bunlardan da böyük bizim sevgimiz.

...Mən səni seçdim ki, mənim bu seçimim dünyanın ən böyük möcüzəsini yaratsın. Dünyanın səkkizinci möcüzəsi bu seçim olsun. Dünyanın ən uzun yolu məhəbbətlə gedilən yoldur. Dünyanın ən mənalı ömrü maddiyyat baxımından qısa da olsa, mənəviyyatca ən uzun ömür sayılan məhəbbətlə keçən ömürdür. Bu ömür dünyanın ən ülvi bir körpüsündən başlanır.

Gözlərdən gözlərə körpülər salan
İki sevən qəlbin öz qüdrətidir.

Bu körpü qüdrətdən yaranmış olduğundan onun memarı ancaq pak, ülvi qəlblər ola bilər.

Məhz bu körpü dünyanın səkkizinci möcüzəsidir!!!

Mən səni seçdim ki, dünyanın səkkizinci möcüzəsi olan bu körpünün memarı biz olaq.

...Mən səni seçdim ki...



## *ÜLVİYYƏ BAHİR*

Ülviyyə Dərdayıl qızı İsmayılova (Quliyeva) 1973-cü il iyunun 5-də Bakının Maştağa kəndində anadan olub. 1991-ci ildə 187 saylı orta məktəbi əla qiymətlərlə bitirib. Yaradıcılığa hələ məltəb illərindən başlayıb. İlk şeiri 1992-ci ildə "Paklıq" qəzetində dərc olunub. O zamandan dövri mətbuatda müntəzəm çıxış edir. Şeir, hekayə və publisistik yazıları "Ulduz", "Yazıçı qadın" jurnallarında və "Azərbaycan XXI əsr", "Haqqın sədası", "Nüanslar", "Real-Press", "Haqqın məhkəməsi" və s. qəzetlərdə çap olunmuşdur.

1996-2000-ci illərdə iranlıların Maştağada təşkil etdikləri "Səvadamuzi" kursunda təhsil alıb, fars dilini öyrənib, hətta Şəhriyarın qəzəllərini tərcümə edib.

2006-cı ildə "Sükutumun səsi", 2008-ci ildə "Etiraf" kitabları nəşr olunub. 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 2010-cu ildə "İti qələm" respublika ədəbi birliyinin "İti qələm" diplomu ilə təltif olunub.

Maştağa Mədəniyyət Evində fəaliyyət göstərən "Gənc qələm" ədəbi birliyinin sədr müavinidir.

## TARİX YAZAN ÖMÜR

Heydər harda, millət də orda!

12 dekabr 2003-cü il xəbəri Azərbaycan xalqını dolmuş buluda çevirdi. Millət öz başçısının – Heydər Əliyevin ölüm xəbərinə inana bilmədi. Inana bilmədi ona görə ki, xalq Heydəri əyilməzlik, sınmazlıq, məğlube-

dilməzlik rəmzi kimi tanımışdı. Həmişə gurlayan, hökmlü, sözü qətiyyətli, xalqın gözü qarşısında yorulmadan saatlarla ayaq üstə durub nitq söyləyən bir insan ölə bilərmi?! Heydər həmişə xalqına gərək olub, bu gün də gərəkdir, o, sağlam, düşüncəli vəziyyətdə xalqı üçün daha nələr edərdi. Neyləyəsən ki, ilahi bir hökm var – ölüm hökmü! O hökmün vaxtı, vədəsi çatanda bütün insanlara oxunan hökmdür. Şah da, adi insan da bu hökmdən keçməlidir. Lakin bu hökmə qədər yaşanan ömürlərin hamısı eyni deyil. Necə ki, Heydər ömrü yaşamaq hər insana nəsib olmur. Həyat dənizə bənzər. Fırtınası da var, ardı-arası kəsilməyən, bəzən qabağındakını yuyub sahilə atmağa can atan dalğası da, narın-narın, xırda qırçınlanan ləpəsi də. Bu fırtınalı, dalğalı, bəzən öz axarında gedən həyatın qoynunda həmişə məğrur, əyilmədən, yolunu azmadan yaşamaq hər insanın qisməti deyil. Məhz Heydərin qismətinə belə bir ömür payı düşüb. O, cismən dünyanı tərk elədi. Lakin xalqı üçün gördüyü əməllərində, qoyub getdiyi yaxşı işlərin təməllərində yaşayır. O, Azərbaycan adlı bir kitabı varaq-varaq oxudu, yazılmamış yeni tarixlər yazdı və qoyduğu bünövrənin sökülməməsi üçün Azərbaycan adlı kitabı etibarlı əllərə tapşırdı. Özünə hörmət qoymayana hörmət etməzlər. Heydər özünü milləti sandı, millətini də özü. Millətini tanıtdı, özü də tanındı, xalqı üçün ömrünün sonunacan layiqli ömür yaşadı, bütün ömrünü xalqına sərf etdi, xalqı da Heydərə özünə layiq qiymət verdi. Budur, Heydər siyasəti, Heydər siyasətinin aliliyi, nəhəngliyi! Heydər xalq üçün yaşadı, xalq üçün yaşayanlarsa heç vaxt ölmürlər–xalq ömrü qədər ömr edirlər. Heydərin ömrü xalqın ömrü qədərdir. Bunu millət sübut etdi; Heydər

harda, millət də orda! – deyən qərarında. O qərar 15 dekabr 2003-cü ildə millət tərəfindən oxundu. O qərarı Azərbaycan milləti imzalamışdı. O qərarın icrasını millət Heydər Əliyevin dəfn mərasimində nümayiş etdirdi. Heydər millət qoynunda son mənzilə yola salınırdı... Hər şey susqun... Hər şey tutqun... Bu soyuq günlərdə havanın soyuqluğu da unudulmuşdu – xalqın isti göz yaşlarında... Külək də susmuşdu, qar da, yağış da... Sanki havanın nəfəs çəkməyə belə ürəyi gəlmirdi. Yanan şamları üfürməkdən qorxurdu. Bu şamları xalq öz Heydəri üçün yandırmışdı. Məzarını ziyarətə millətin özü sayda gül-çiçək gətirilmişdi. Bəlkə Heydərə ömründə heç vaxt bir gündə bu qədər gül-çiçək təqdim edilməmişdi. Güllər hüznlü idi... Millət hüznlü idi... O gün hüznlü idi... Bayraqlar baş əymişdi, millətin böyük sayılıb seçilmiş, təkcə öz xalqının tanıdığı yox, dünyanın tanıyıb, siyasətini bəyəndiyi oğlu Heydərinin qarşısında. Bu, böyüklüyə ehtiram idi. Millət baş əyirdi həmişəyaşar rəhbəri önündə. Bu, millətin Heydərin ruhuna olan hörməti idi. Heydər Vətən torpağına qovuşdu–həmişə sevdiyi, müdafiə etdiyi Vətən torpağına. Ruhu millətə baxdı, bir daha xalq üçün, millət üçün yaşamağın ləzzətini duyub yaşadı. Məzarı üstə dikəlmiş şəkli sanki gül-çiçəyə qərq olmuş ayaqüstə duran bir insana bənzəyirdi. Üzü gülürdü... Sanki onu ziyarətə gələnləri özü qarşılayırdı. Məzarı vətən torpağının gül-çiçəyinə qərq olmuşdu. Yandırılmış şamlar gecəyə qədər davam edən ziyarətə gələnlərin yoluna işıq salırdı. Dəfn zamanı Azərbaycan himninin sədaları altında atılan toplar, açılan yaylım atəşləri, gəmilərin həyəcanlı, hüznlü fiti ağlatmışdı bu milləti. Bir dəqiqəlik sükutda millət susmuşdu.

Bu sükut adi sükut deyildi. Bu sükutda donmuş səbrlərin ölümə qarşı səssiz inqilabı, çağırışı eşidilirdi. Bu, Heydərə layiq ehtiram idi. Bu, bütün dünyaya Heydərin xalq, xalqın da Heydər olduğunu sübut edən həqiqət idi. Heydərin xalq yaşadıqca varlığını, yaşadığını təsdiq edən həqiqət!

*15.12.2003*

## 75-ci BAHARIN MÜBARƏK!

Dünya yaranandan üzü bəri inkişafa yol alıb. On illərlə, yüz illərlə təkmilləşən insanlar həmişə yenilik axtarışında olub. İnsanların xeyrinə yönələn yenilik dünyanın inkişafına, xalqların mədəniyyətinin daha da yüksəlişinə xidmət edir. Bu məsuliyyəti Allah-təalanın hər bir xalqa bəxş etdiyi xalqın yükünü çəkən, sözünü ifadə edə bilən, lazım gələn anda öz xalqını təmsil etməyi bacaran tək-tək şəxsiyyətlər daşıyır. Bu, Allahın o xalqa lütfüdür...

Allah-təalanın lütfü ilə Azərbaycan xalqına bəxş olunan nadir insanlardan biri də xalq yazıçısı Anardır. Bu gün xalqımızın fəxri olan Anar da dünyadakı bütün uşaqlar kimi doğulub. Dünyaya göz açandan hamı kimi böyüsə də gördüklərini dərk süzgəcindən keçirdikcə başqa uşaqlardan seçilib. Anar adi uşaqlar tək doğulsa da, yaşadığı mühit adi olmayıb. Çünki o, dünyada fərqli ömür yaşamış böyük ürəyə malik xalq şairi Rəsul Rzanın, qadınlığa xas bütün gözəl xüsusiyyətləri özündə cəm edən, kişi qeyrətli, lakin qəlbi ən incə, ən zərif duyğularla köklənən şairə xanım Nigar Rəfibəylinin oğlu idi. Bu bir-birinə dərin tellərlə bağlı iki qəlbin sevgisin-

dən doğulan uşaq da məhz Anar kimi olmalıydı...

Adıyla ilkinlik qazanan Anar, çox keçmir ki, yaradıcılığı ilə də seçilir. Adından yüzlərlə körpə adına məna gələn Anar yaradıcılığı ilə də bir çox gənc yazarlara istiqamət verir.

Anar Azərbaycan mədəniyyəti üçün o qədər böyük şəxsiyyətdir ki,onun haqqında tariximiz irəliləyincə, onu oxuyub dərk eləyənlər, zaman-zaman Anarı ananlar, onun əsərlərinin dərinliyində bəlkə bizim edə bilmədiyimiz kəşflər etdikcə yeni-yeni kitablar yazılacaq. Mən Anarın əsərlərinin dərinliyinə heyran bir Azərbaycanlıyam. Bu heyranlıq məni illər boyu izləyib. Anarın adi hekayəsinə belə mən böyük əsər kimi yanaşmışam. Oxuduqca vaxtı, zamanı unutmuşam. Mən Anarın əsərlərini oxuduqca özümü onunla həmyaşıd hesab edirəm və onun haqqında danışanda həmyaş insan kimi danışıram. Budur Anarın yaradıcılıq qüdrəti! O, bütün zamanlarda onu sevənlərlə, oxuyub dərk edənlərlə, onu anlayanlarla həmyaş olacaq. Mən Azərbaycanın fəxri olan Anar haqda həmişə fəxrlə danışıb və yazıram. Əsərləri ilə tanışlığımdan sonra elə sanıram ki, o böyük sənətkarla hələ gənclik çağından tanışam. Anarı əsərləri ilə sevmişəm, sevgimi yazdıqlarımda sübut etməyə çalışmışam və ömrüm qədəri də sevəcəyəm. Çünki Anar sevilməyə layiq sənətkardır. Ulularımız “Dünya bir pəncərədir, hər gələn baxıb keçər.”-deyib, Anar bu pəncərə önündə dünyaya nə üçün gəldiyini dərk edərək düşünməyi bacardı. Düşündüklərini zamanın sürətilə eyniləşdirə bildi. Düşüncələriylə yanından ötüb keçənlərdən fərqləndi, seçildi. Dünya pəncərəsindən görüb dərk etdiklərini düşünən beynin təxəyyül süzgəcindən keçirərək dərk etmək istə-

yənlərə miras qoymağı düşündü və dünyanın gözünə baxa-baxa zamanı əlinə alıb zamansızlıq sehrini oxudu. Anar Azərbaycan mədəniyyətini öz əsərləriylə bir pillə də yüksəldə bidi. Xalqın mədəniyyəti toxunulmaz bir qalaya bənzər. Nə qədər ki, bu dünyanın pəncərəsi var, nə qədər ki, insanlar bu pəncərə önündən gəlib keçir, bir o qədər də xalqımızın mədəniyyət qalası hörülməkdə davam edəcək, ta zaman öz sözünü deyənəcən... Bu hörgüdə Anarın da bir ömür yazdıqları var. Bu əsərlər yazıldıqca oxunur. Sabah da bu yazılanları zaman özü vərəqləyib yeni-yeni nəsillərə oxudacaq.

Bu gün ömrünün 75-ci pilləsinə qədəm qoyan xalqın sevimli yazarı Anara Allahdan yaşadığı ömür qədər də sağlam həyat arzulayırıq. Qoy ömrünün pillələri artdıqca, bu pillələri qalxan sevimli Anarımız gənc nəslin sevgisiylə qarşılaşsın. Qoy keçmişiylə bu günü arasında ömrünün hissələri həkk olunmuş cild-cild əsərləri gənc nəsli salamladıqca, Anar yaşadığı ömrün nə qədər dəyərli, gərəkli olduğunun bir daha şahidi olsun. Qoy ömrünün qapısı hər il bahar qoxusuyla, bahar təravətilə, bahar sevgisiylə açılsın! Amin!

## QƏDİR DÜNYASI

Sənət aşiqi Qədir Rüstəmovun ecazkar, cazibədar məcnunanə səsi... O səs gücünü ilahi qüdrətdən alır. Ona görə də o qədər ürək titrədən, ürək göynədəndir. O səs sanki səhrada tək-tənha dolaşıb nakam sevgisini sinəsinə basaraq, ilahi qüdrətlə danışırmış kimi əllərini göyə açıb ah-nalə edən aşiqin ürək yanğısını xatırladır. Qədir yanğısını yerə-göyə əyan edir. Qədiri dinlədikcə

sanki sən də özünü səhrada kənardan dayanıb onu dinləyən kimi hiss edirsən. Sən də yanırsan onu duyan, onu sevən bir ürək kimi. Məcnunlaşırsan Qədiri dinləyə-dinləyə. Özün də bilmədən o səsə vurulub ondakı qeyri-adiliyə qibtə eləyirsən.

Qədir dünyası... Çoxlarının dərk etməyə qadir olmadığı bir İnsan dünyası. O dünyanın qeyri-adiliyini yalnız onu sevən, duyan, bütün varlığıyla qəbul edən Qədir kimi məcnunlar hiss edə bilər.

Qədir dünyasında bir ocaq yanır. Xalqının, millətinin dərdiylə, ağrı-acısıyla, iç dünyasına sıza bilən qəm-kədəriylə alışan bir ocaq. Bu ocağın istisində Qədir üşüyür. Xalqının dərdini–çörəyimizi, suyumuzu yeyib-içən düşmənlərimizin zəbt etdiyi torpaqlarımızın ah-naləsini dinlədikcə bir İnsan dünyası aşiqanə nalə çəkir. Qədirin səsindəki nalə əzəlidir. Sanki Qarabağlı, Şuşalı, Ağdamlı, Laçınlı günlərimizdə bu torpaqların bir gün bizsiz, yetim qalacağı günü əvvəlcədən hiss edib içindəki yanğısını səsinə axıdıbmış. Qədir xalqının əzablı, məşəqqətli gününü görüb onun dərdiylə əriyən bir sənətkardır. Bu millətin dərdi həmişə olub və olacaqdır. Nə qədər ki, onun Qədir kimi vətən, millət, xalq dərdi çəkən aşiq sənətkarları, yazıçı-şairləri, yaradıcı insanları var. Nə qədər ki, xalqımız ürəyiyumşaq, dostuna, düşməninə məhəl qoymadan həmişə, hər yerdə hamının köməyinə qaçan, dadına yetəndir, bu millətin dərdi tükənməz. Qədir sevgisi, Qədir naləsi tükənmədiyi kimi.

Bəzən Allahın ilahi vergi bəxş etdiyi yaradıcı insanlar olacaqları öncədən hiss edib duyur. Elə vaxt olur ki, hiss etdiyini, qabaqcadan duyduğunu dilə gətirməyə çəkinir. Susur, öz-özünə bunların həqiqət olmayacağıyla

təsəlli verir. Qədir də doğma yurdunun düşmən tapdağı altında inləyəcəyini, Qarabağ həsrətiylə əriyəcəyimizi qabaqcadan hiss edib duymuşdu sanki. Sənətkar ürəyi, aşiq ürəyi susa bilməmişdi. Dilə gəlmişdi oxuduğu muğamlarda, inləmişdi, sızlamışdı öncədən hiss edib duyduğuna inanmaya-inanmaya. Sən demə Qədirin səsindəki yanğı, ah-nalə bu gün həqiqətə çevrilib, Laçın dağlarında əks-səda verəcəkmiş. Qədirin sona bülbülləri fəğan edəcəkmiş.

Qədir, sənin əbədi yaşamağın üçün təkcə “Sona bülbüllər”in bəs edər. Sənin “Sona bülbüllər”in həmişə nalə çəkəcək, dinlədəcək, Qədirə olan sevgisiylə alışıb-yanan ürəkləri göynədəcək, inlədəcək.

Xoşbəxt o insandır ki, bu dünyadan köçəndə yaratdığı, düzüb-qoşduğu, əbədi varlığının möhürünü vurduğu əsərləri ona yas tutur. Xoşbəxtdir o insanın yaşadığı mənalı ömrü də, bənzərsiz ölümü də...

Mən elə ölümlərə qibtə edirəm; - ölümüylə ölümsüzlüyə yol açan aşiq-sənətkar ömrünün əbədiliyinə. Sən də yaşayırsan Qədir, yaşadırsan, Qədir. Yaşayacaqsan, yaşadacaqsan, Qədir. Səsin gəldikcə, sona bülbüllərin dərd çəkib ah-fəğan etdikcə, Qədirin varlığını bu gün də, sabah da, gələcəkdə də hiss etdirdikcə, sənin qəlb dünyanın, sənət dünyanın, eşq dünyanın vurğunu olanlar sənin sənətə olan dərya eşqinin qarşısında baş əyəcək, varlığına, ruhuna qibtə eləyəcək.

Ağlat bu dünyanı, Qədir. Sən məhəbbət, sevgi atəşində ağlada bilən aşiqsən. Ağlat bu dünyanı ki, sənə olan sevgisindən axan göz yaşlarında qüdsiyyətə qovuşsun. Qədir dünyasının ağuşunda Qədir dünyasının sevgi atəşində.

## SEVGİ ŞAİRİ

Raqif Nazimoğlu. Nə qədər ki, bu adı, simanı mətbuat səhifələrində, ara-sıra əlimə düşən kitablarında görürdümsə, mənə sərt, daxili aləmi buludlu bir insan təsiri bağışlayırdı. O zaman ki, özünü həyatda gördüm, fikirlərim dəyişdi. Mən özümü o cəhətdən xoşbəxt adam sayıram ki, insanların daxili aləmini görə və duya bilirəm. Raqif Nazimoğlunu görəndə təsəvvürümdəki dünya dəyişdi. O sərtliyin arxasından mülayimlik, buludlar arxasından sevgi dolu bir günəş boylanırdı. Bu haqsız dünyamızda yaşamağa güc, qüvvət verən sevgi günəşi. Bu günəşin istisində iradəsinə, qətiyyətinə sığınıb, inamına sarılıb bu dünyamıza kömək etmək eşqilə döyünən şair ürəyi.

Hər bir insan dünyaya sevgiylə gəlir. İllər keçdikcə, yaşının üstünə yaş gəldikcə sevgisinə aldandığını, dünyanın möhnət yuvasında qonaq olduğunu dərk edirsən. Kimi bu vəfasızlığın qarşısında söz tapmayıb susur, kimi də Raqif Nazimoğlu kimi “Bələnmişəm dərdlərinə dünyanın” deyib etirazını bildirir. Beş günlük vəfasız dünyaya beş kəlmə sözünü deyə bilir:

Ay vəfasız olan dünya,
Şərti şumda kəsmədikmi?
Bir göy altda qərar tutub,
Bir can üstdə əsmədikmi?

Dərdlərinə bələndiyi dünyanın ən göynədici dərdi yüklənir şair qəlbinə. Vətəninə, torpağına olan haqsızlıq,

namərd düşmənin xəyanəti, tapdalanmış namus-qeyrətimiz, mərd oğullarımızın namərdcəsinə ölümü, harayı qəhəriylə boğulan torpaqlarımız... Bu dərdləri duyan şair qəlbi "Mən belə dünyadan necə küsməyim" şeirində deyir:

Analara övlad dağı çəkilir,
Ataların vaxtsız beli bükülür,
Torpağıma haqsız qanlar tökülür,
Mən belə dünyadan necə küsməyim?

İnsanın özü kimi sirli-sehrli dünyanın nə yazından, nə yayından, nə payızından, nə qışından baş açmayan şair dünyadan hey gileylənir. Şair Raqif Nazimoğlu üçün Vətən, Torpaq, Ana müqəddəsliyi danılmazdır. Əzab verən dünya hayına yetməyəndə yenə ana yetər dada. Ana özü də bir dünyadır. Lakin qəddar dünyamızdan fərqli olaraq mərhəmətli, doyulmaz, isti qoynunda övlad bəsləyən dünya.

Şair Raqif çək bu qəmi,
Alışdın, yandın yenəmi?
Vətən kimi, Torpaq kimi,
Allah kimi birdi Ana...

Şairin dərd qoxuyan gecəsinin gözlərindən ümüd dolu yuxu süzülür. Yenidən ümüd dolu səhərə göz açmaq, sabahı salamlamaq üçün şairin gecəsi də dincini almalıdır. Ən azından "sabahın borcunu" daşımaq üçün. Şair doğulmaq da dünyanın bir möcüzəsidir. Mən şairlərə sevgi günəşi deyirəm. Onların qəlbinin hərarəti adi həra-

rət deyil. Sevgi günəşi insanlara yalnız xeyirxahlıq, sevgi bəxş edə bilər.

İşığa inandım hələ uşaqkən,
Od-ocaq gəzdirib köksümdə ürək.
İşıq axtarmışam ürəklərdə mən,
Səmtim Günəş olub günəbaxan tək.

Şair Raqif Nazimoğlu da günəş taleyi yaşayır. Nə qədər ki, dünya var, nə qədər ki, insanlar var, Raqifin də sözü yaşar... Günəş taleli, Günəş ömürlü insan! Sevgiyə möhtac dünyamızla birgə yaşayacaqsan!

## İŞIQ HƏYATDIR

Müasir həyatımızı bu gün işıqsız təsəvvür etmək mümkün deyil. Hər şeyin elektrikləşdiyi zamanda sanki işıqdan asılı qalmışıq. Hətta adi məişətimizdə bir gün işıqsız qalanda elə bil qaranlıq bir dünyaya düşürük və qaranlıqda işığın nə demək olduğunu daha yaxşı başa düşürük. Gözlərimizdə ilahinin bəxş etdiyi nur, evlərimizdə Allahın bəndələrinə verdiyi neməti idarə edən insanların vasitəsilə yandırdığımız işıq. Allah-təala gözümüzdən nuru, evimizdən işığımızı əksik etməsin. Ömrünü, gününü bu sahəyə həsr edən insanların xalq üçün dəyəri böyükdür. Enerji sahəsi üzrə ixtisaslaşıb, bu sahədə həvəs və maraqla çalışanlardan biri də Vüqar Tahir oğludur. Cəmiyyətdə yeri, sözü, adı çəkilən Vüqar Tahir oğlu kimdir?

Haşiyə: Vüqar Tahir oğlu Əlişanbəyli 1970-ci il martın 24-də Bakı şəhərində anadan olmuşdur. 1987-ci ildə 42 saylı orta məktəbi bitirmiş və Politexnik İnistitutuna daxil olmuşdur. İnstitutda oxuya-oxuya Azərenerjidə çalışmış, sonrakı illərdə Bakı elektrik təchizatının Maştağa bölməsinin mühəndisi olmuşdur. Ali savadına, rəhbərliyin tapşırığının vaxtında məsuliyyətlə yerinə yetirdiyinə və qayğıkeşliyinə görə kollektivdə seçilir və sevilir. Camaatla səbr və təmkinlə davranır. İdmanı sevir, futbol və yüngül atletika ilə məşğul olmuşdur. Peşəsindən asılı olmayaraq ədəbiyyata, şeirə maraq və sevgisi var. Vüqarın daxili aləmi ilə tanış olanda onun nə qədər zərif, incə zövqə malik olduğunu görürsən. Növündən asılı olmayaraq hər hansı bir incəsənət əsərinin ən zövqlüsünü seçir. Ailəlidir, iki övlad atasıdır.

Martın 24-ü Vüqarın ad günüdür. Bu gündə çox arzular, xoş diləklər dilə gəlir. Biz də Vüqarı çalışdığı müəssisənin-Bakı elektrik şəbəkə”ASC-nin kollektivi və sevimli ailəsi adından ürəkdən təbrik edir, ona can sağlığı, uzun ömür, iş həyatında uğurlu yüksəliş arzulayır və yazımızı ona həsr etdiyimiz şeirlə yekunlaşdırırıq:

Bu dünyanın nə çox qəmi, kədəri,
Yolunda qəm, kədər olmasın, Vüqar!
Sevinc bağçasında bitən arzular
Qəlbində açıbsa, solmasın,Vüqar!

Hərarətli sevgin qoy günəş olsun,
Qədəm qoyduğun ev nur ilə dolsun,
Qoyma sevgi gülün saralıb-solsun,
Kədər ürəyinə dolmasın,Vüqar !

Uğurla yolların nura bələnsin,
Göylərdən başına sevgi ələnsin,
Ülviyyə də sənə arzu diləsin; -
Bir arzun da nakam qalmasın, Vüqar!

## ALLAHIN MÜKAFATI

Allahım mənə ömrümün 34-cü yayında kamil bir əsər bəxş elədi. Vüsalə adında bir mələyim, onunla birlikdə min bir diləyim doğuldu. Mən Allahımdan elə bir övlad istəmişdim ki, hər dəfə ona baxanda Allahıma olan şükrlərlə gözlərim yaşla dolsun. Şükr sənə, İlahi! Bu gün bu şükrlərin yiyəsiyəm. Qızımın 3 yaşı olsa da, hamını təəccübləndirəcək dərəcədə ağıllıdır, oturuşu-duruşu ilə yaşıdlarından fərqlənir. Hər iki əlifbanı bilir, sərbəst yazıb-oxuyur. 1000-ə qədər sayır. Çoxlu şeir əzbərləyib, hətta rus, fransız, ingilis dilində də şeir bilir. Evdə böyük adamlar kimi saatlarla onu tək qoyub vacib işimin dalınca gedə bilirəm. Özünə görə idarəçilik qabiliyyəti var. Tez-tez "Məktəbə getmək istəyirəm" deyir. Evdarlığı çox sevir, özü bildiyi kimi "üfə" bişirir. Özünəməxsus onunçün canlı olan gəlinciklərinə və heyvan oyuncaqlarına qulluq edir, hərdən onlara dərs keçir və öyrənmələrini tələb edir.

Bu gün 2011-ci il aprelin 20-də qızımı Azərbaycan Yazıçılar Birliyində keçirilən "Əsrlərdən əsrlərə" adlı kitabın təqdimatına aparmışdım. Yığıncağa gələnlərə təqdim olunan kitabı əlimdən alıb vərəqlədi, kitaba olan qeyri-adi sevgisiylə onu sinəsinə sıxıb saxladı. Sakitcə

oturub çıxış edənləri dinlədi. Təqdimat bitəndən sonra isə kitabı avtoqraf yazdırmaq üçün hamı kimi tərtibçiyə apardı. O da "Əziz nəvəm Vüsaləyə" sözlərini yazdı. Bu qızımın ilk avtoqraflı kitabı idi. Evə gələndə dedi: Bu kitabı mənə veriblər, məktəbə gedəndə aparacağam."

Hələ ki, hər şeyi öz dərkinə, öz dünyasına görə edir. Mən isə hər gün onu yaradana şükr edə-edə yaşayıram. Çalışıram ki, Allahın bu mükafatını gələcəyin ləyaqətli, mərifətli, Allahını tanıyan, vətənini, xalqını, millətini sevən, insanlar üçün gərəkli olan bir insan kimi yetişdirə bilim.



## *NURANƏ AXUNDZADƏ*

Axundzadə Nuranə Rauf qızı 1989-cu il aprelin 18-də Bakı şəhərində anadan olmuşdur. 2008-ci ildə Buzovna qəsəbəsindəki 125 saylı orta məktəbi, 2012-ci ildə Bakı Dövlət Universitetinin coğrafiya fakültəsini bitirmişdir. Hələ məktəb vaxtlarından ictimai sektorda fəaliyyəti ilə seçilmiş, beynəlxalq seminar və forumlarda iştirak etmişdir. Kiçik elmi məqalələri, esse və köşə yazıları internet səhifələrində işıqlandırılmış və universitet orqanlarında dərc olunmuşdur. "Paklıq" qəzetinin əməkdaşıdır.

### "RİO- 20"-yə məktub

*Ya insanlar elə edəcəklər ki, havada tüstü azalacaq; ya da tüstü elə edəcək ki, yer üzündə insanlar azalacaq.*

*Lui Batton*

...Hələ kiçik yaşlarımızdan əzbərlədiyimiz şeirlərdə səma mavi, aydın idi. Bu şeirlərin romantikası gözümüzü elə qamaşdırdı ki, başımızı qaldırıb səmaya da baxmadıq. Payızın ortalarında atam bizə səmada qatarlanaraq dəstə-dəstə uçub gedən quşları göstərərdi. Quşlar gözdən itənə qədər qardaşımla onların arxasınca baxardıq. Nədənsə onda heç səmanın rənginə diqqət yetirməmişdim. Bəlkə də həqiqətən göz qamaşdıracaq dərəcədə mavi və aydın idi. Ömrümdə göy qurşağı görməmişəm. Göy qurşağı baharda yağışdan sonra aydın və təmiz səmada görünən təbiətin palitrasıdır. Hansısa nağıldan

oxumuşdum ki, göy qurşağının altından keçən insan əbədi xoşbəxt olurmuş. Biz böyüyə-böyüyə dünya kiçildi və bu paradoksu "qloballaşma" adlandırdıq. "Qlobal dünyanın" səması boz rəngdə idi, boz sərçələri isə qatarlanıb uçmurdular. Böyüyəndən sonra anladım ki, təmiz səma elə xoşbəxtlik deməkdir. Bizim qlobal dünyamızda göy qurşağını görmək, nağıllarda deyildiyi kimi, onun altından keçmək qədər mümkünsüz olub...

Tarixə iki dəhşətli dünya müharibəsi bəxş etmiş XX əsr insan və onun daxil olduğu ətraf mühitdə silinməz izlər buraxdı. Ümumiyyətlə, hər ötən əsr, il planetimizin normal inkişaf qanunauyğunluqlarının pozulmasına bu və ya digər dərəcədə təsirsiz ötüşmür. BMT-nin məlumatlarına görə, hər il dünya meşələrinin 25 milyon hektar (Fransanın ərazisinin yarısı qədər) sahəsi qırılıb məhv edilir. Meşələrin qırılması biosferin davamlılığının və atmosferdə oksigenin azalmasına, quraqlığın, torpaq eroziyasının, deflyasiyasının və sürüşmələrin əmələ gəlməsinə, səhralaşmanın sürətlənməsinə, daşqınlara, güclü selə, qasırğalara, torpağın və suyun eroziyasına, iqlimin və relyefin kəskin dəyişilməsinə və s. səbəb olur. Əvəzində isə bu meşələri qıran insanlar özlərinə böyük evlər tikir, bu evlərdə rahat mebellərdən istifadə edir, üstündə bir daha ağac kəsməyəcəklərinə dair razılığa gəlib imza atmaq üçün kağız istehsal edirlər. Şimali Afrikada hər il səhraların sahəsi 100 min hektar artır. Kosmosdan çəkilən şəkillərin vasitəsilə müəyyən olunub ki, qumlu səhralar savanna zonasına doğru 200 km.ə qədər genişlənib. Son proqnozlara əsasən, XXI əsrin əvvəlində okean suyunun səviyyəsi 0,5-1 m, sonunda isə 2 m qalxmaqla qurunun bir hissəsinin su altında

qalması ilə nəticələnə bilər. Beləliklə də ekosistemlərə, biosferə, xüsusilə flora və faunaya ağır dağıdıcı zərbə təhlükəsi yaranır. XXI əsrin başlanğıcında dünyada bir gün ərzində səhralaşma və şoranlaşma nəticəsində 44 min hektar torpaq sahəsi öz münbitliyini və təsərrüfat əhəmiyyətini itirir, 28 min hektar, son məlumatlara görə isə 50 min hektar (yeni salınan meşə sahələrindən 10 dəfə çox) dünyanın ən qiymətli təbii sistemlərindən biri sayılan və planetimizin "ağ ciyərləri" adlandırılan tropik meşə sahəsi məhv olur, 40 mindən artıq uşaq ölür. Meşələri qırıb oksigen ehtiyatını azaldan insan ilin sonunda evinə hava təmizləyicisi almaq üçün pul toplayır. Ətraf mühitin çirklənməsi əsasən iri sənaye şəhərlərinin (əhalisi 5-10 milyon nəfər və daha çox), fabrik və zavodların, kombinatların, emal müəssisələrinin payına düşür. Dünya üzrə ətraf mühitin ümumi çirklənməsinin 70-80%-i şəhərlərin, o cümlədən 34%-i metallurgiya sənayesi obyektlərinin, 27%-i energetikanın, 12%-i neft məhsullarının, 9 %-i kimya zavodlarının və 7%-i təbii qazların, yalnız 11%-i digər istehsal sahələrinin hesabına yaranır. Aqrar sahədə işlədilən pestisidlər, kimyəvi maddələr, heyvandarlıq fermalarının tullantıları da mühitin çirklənməsində çox böyük rol oynayır. Dünyada hər il orta hesabla ətraf mühitə atılan müxtəlif tullantıların miqdarı bir nəfərə 20 tondur.

"Stern" hesabatına əsasən, dünyada 2050-ci ilə qədər ekoloji səbəblərdən qaçqın düşəcək insanların sayı indiki çirklənmə səviyyəsi davam edərsə, 200 milyona çatacaq. Odur ki, bəşəriyyət indiki ekoloji, sosial və iqtisadi problemlərin həlli üçün yeni yanaşmalardan istifadə etməlidir. Ekoloji proseslər, eyni zamanda onların məntiqi

nəticəsi olan təhlükəli hidrometeoroloji hadisələr hər il iqtisadiyyata milyonlarla dollar zərər vurur. Elmi-texniki inkişafın, əhali artımının sürətlə getdiyi bir dövrdə iqtisadi böhranı tənəzzül səviyyəsinə gətirib çıxaran amillər kimi ilk olaraq mövcud ekoloji durum qiymətləndirilməlidir. Tullantısız texnologiyanın tətbiqi, təkrar istehsala əsaslanan metodların təkmilləşdirilməsi, alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi və s. ekoloji qanunauyğunluq nəzərə alınmaqla iqtisadi əsaslarla həyata keçirilməlidir. Iqtisadiyyatın bu tip perspektivlərlə inkişafı "yaşıl iqtisadiyyat" anlayışını meydana gətirir. "Yaşıl iqtisadiyyat" əmtəələrin və xidmətlərin istehsalı, bölgüsü və istehlakı ilə bağlı olan iqtisadi fəaliyyətlərin elə bir sistemidir ki, burada gələcək nəsilləri ciddi ətraf mühit riskləri və ekoloji çatışmazlıqlarla qarşı-qarşıya qoymadan uzunmüddətli rifah artımına və davamlı iqtisadi inkişafa nail olunur. "Yaşıl iqtisadiyyat" həm də davamlı inkişafa və ekoloji iqtisadiyyat biliklərinə əsaslanan bir iqtisadi inkişaf modelidir. "Yaşıl iqtisadiyyat"ın formalaşması üçün göstərilən bütün xidmətlərin məcmusu "yaşıl biznes" adlanır. Hazırda beynəlxalq miqyasda "yaşıl iqtisadiyyat" üzrə mal və xidmətlər bazarının dövriyyəsi 1,370 trilyon dollardır. Bu, dünya iqtisadiyyatının 2,4 faizinə bərabərdir. BMT-nin hesablamalarına görə, inkişaf etməkdə olan ölkələrdə "yaşıl iqtisadiyyat"ın inkişafı üçün hər il 40 milyard dollar investisiya tələb edilir. "Yaşıl iqtisadiyyat"a qoyulan hər 1 dollar investisiya 60 dollar olaraq geri dönür.

Hər bir biznesmen, iş adamı dövrün tələblərinə uyğun olaraq, "yaşıl" qaydaları tətbiq edə, ətraf mühitdən mümkün qədər zərər yetirmədən istifadə edə bilər. Bu-

nun üçün yalnız təbiəti sevmək, planetimizi – evimizi qorumaq təşəbbüsü olmalıdır. Yalnız özünü düşünmək, şəxsi mənafeyini güdmək artıq dəbdə deyil. Axı hər bir iş adamı dəblə ayaqlaşmaq – bahalı avtomobillər sürmək, böyük evlərdə yaşamaq, xəz dərili paltarlar geymək istəyir. Düşünmürsünüz ki, artıq XXI əsrin dəbi dəyişmişdir? İndi yaşıl rəng dəbdədir...

“Yaşıl iqtisadiyyat"ın inkişafına insanların cəmiyyət və gələcək nəsillər qarşısında daşıdığı sosial məsuliyyət də təsir göstərə bilər. Sosial məsuliyyət hissinin yüksək olduğu bir cəmiyyətdə fərdi nəqliyyatdan istifadə imkanı olan şəxslər bir çox hallarda ictimai nəqliyyatdan istifadəyə üstünlük verirlər. Bu insanlar hər gün mağazada satıcının verdiyi plastik torba ilə ərzaq ala biləcəkləri halda, özləri ilə bir neçə dəfə istifadə oluna bilən kağız torba aparan insanlardır. Cəmiyyətin bu üzvləri xəz dəri geyimlər kataloquna həsədlə baxan insanlar deyil, onlar soyuq qış günlərində quşlar üçün yem qoyan, küçə heyvanlarına sığınacaq verən insanlardır. Bu insanlar bahalı avtomobilləri ilə öyünən yox, kifayət qədər az yanacaq sərf edən avtomobillərdən istifadə edənlərdir. Bu insanlar bahalı dekorativ ağac əkmək üçün neçə-neçə yaşlı ağacı qıranlar deyil. Bu insanlar “yaşıl” düşüncə sahibləri, təbiəti qorumaqla gələcəyi qoruyanlardır. Belə bir sosial məsuliyyətli seçim, “yaşıl” təfəkkür yollarda nəqliyyatın azalması, təbii ehtiyatlardan qənaətlə istifadə və ətraf mühitin qorunmasına yönəlmiş “yaşıl həyat tərzi” anlamı daşıyır. Bu aspektdə yaradılan iş yerləri dünyada “yaşıl” iş yerləri adlanır. Dünyada hazırda 2,5 milyon “yaşıl iş yeri” mövcuddur. Bu, alternativ enerji istehsalı və xidməti sahəsində çalışanlardır.

Təbiətə qayğı–gələcəyə qayğıdır; planetimizi qorumaq–övladlarımızı qorumaqdır. Hər bir valideyn dünyaya gətirdiyi övladının gələcəyini təmin etmək üçün ona bankda hesab açır; illər keçdikcə ona bir ev qurmağa çalışır. Hər doğulan körpənin adına bir ağac əksək, bu, daha etibarlı bir əmanət sayılmazmı? Onun yaşaması üçün təbiətin kiçik bir guşəsini qorumağa çalışsaq, bu, onun evi olmazmı? Axı hamımızın planet boyda bir evimiz var...

...sabah övladımıza mavi səmasında quşlar uçan şeirlər öyrədəndə, ya da göy qurşağının altından keçib əbədi xoşbəxtlik qazanılan nağıllar danışanda başlarını göyə qaldırıb “Hanı dediyin mavi səma?” soruşsalar, nə cavab verəcəyik? Bəlkə şeirlərdən “mavi səma”, nağıllardan “göy qurşağı” sözlərini çıxardaq? Yox, yaxşısı budur, boz səmaya aid şeirlər yazaq... Ya bəlkə heç onlara şeir oxumayaq?



## *NİSƏ AZİKQIZI*

1993-cü il noyabrın 6-da Bakıda anadan olub. 2011-ci ildə Maştağa qəsəbəsindəki 108 saylı orta məktəbi bitirib, Bakı Dövlət Universitetinə daxil olub. Yazıları "Paklıq" qəzetində dərc olunub.

## MƏNİM İDEALIM

Dünyada bir çox gözəl və vacib olan peşələr vardır. Bu peşələr və peşə sahibləri olmazsa, cəmiyyət inkişaf edə bilməz və hər bir sahə getdikcə tənəzzül edər. Lakin bu peşələr içərisində elə bir peşə var ki, o olmazsa, yer üzündə mükəmməl nə həkim, nə hakim, nə mühəndis, nə kosmonavt, nə də alim ola bilməz. Bu müəllimlikdir. Müəllim sənəti, peşəkar müəllimlər olmasa, heç bir sahə üzrə mütəxəssis yetişə bilməz. Lakin danılmaz faktdır ki, hər müəllim boynuna düşən vəzifəni layiqincə yerinə yetirməyə səy göstərmir.

Müəllimlik ən məsuliyyətli, ən vacib və müqəddəs bir işdir. Əsl müəllim təkcə fənni tədris etməklə kifayətlənməməlidir. O həm də şagirdə öz fənnini sevdirməli, ona düzgün istiqamət verməli, ən əsası özündən güclü kadrlar yetişdirməyə çalışmalıdır.

Biz çox xoşbəxtik ki, orta məktəb həyatımızda belə müəllimlər ilə rastlaşmışıq. Mən bu yazımda müəllim adını şərəflə daşıyan, şagirdlərinə daima doğru yol göstərən, öz vəzifə borcunu heç vaxt unutmayan, şagirdlərinin idealına çevrilən bir müəllim haqqında danışmaq istəyirəm.

Haşiyə: Dadaşova Samirə Davud qızı 1971-ci il noyabrın 30-da Maştağa qəsəbəsində anadan olmuş, 1978-88-ci illərdə qəsəbədəki 255 saylı orta məktəbdə təhsil almışdır. Hələ məktəb illərində fəallığı, dərslərə ciddi münasibəti, bilik və bacarığı ilə yoldaşlarından seçilmiş, müəllimlərinin hüsn-rəğbətini qazanmışdır.

1989-cu ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olan Samirə tələbəlik illərində də özünəməxsus cəhətlərilə seçilmiş, 1994-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1996-cı ildən indiyə kimi qəsəbədəki C.Nurməmmədov adına 108 saylı orta məktəbdə ana dili və ədəbiyyatı fənnini tədris edir.

Samirə müəllim uşaqlara təkcə doğma dilimizin qrammatikasını və milli mədəni sərvətimiz olan ədəbiyyatımızı öyrətməklə kifayətlənmir. O sadəcə müəllim deyil. Millətin gələcəyi olan şagirdlərə sirdaş, onların sevincinə, kədərinə şərik olan, onları daim düzgün yola çağıran, istedadlarının üzə çıxarılmasında yardımçı olan gözəl bir dostdur. O bizə təkcə savadı ilə deyil, cəsarəti, daim öncüllüyü, ağlı-kamalı, mənəvi dəyərlərimizə olan münasibəti ilə örnək olub. Məktəbdə çalışdığı on bir ildə bütün müəllim və şagird kollektivinin sevimlisinə çevrilib. Ona qibtə edənlər də az deyil. Yetirmələri onun adını daim uca tutmağa çalışır. Məktəbdə oxuyanların hər biri Samirə müəllimənin şagirdi olmağı arzulayır və bu arzusuna çatanlar isə öz müəllimi ilə fəxr edir.

Belə bir kəlam var: ”Validеyn uşağı göydən yerə endirir, müəllim isə onu yerdən göyə qaldırır”. Əsl müəllim olmaq üçün ilk öncə gözəl mənəvi dəyərlərə malik olmaq lazımdır. Bu müsbət xüsusiyyətlər də Samirə müəllimdə cəmləşib. O əslində Allahın çox xöşbəxt bəndə-

sidir ki, əlində çox qiymətli bir xəzinənin–elm xəzinəsinin açarını tutub. Elm ilə insanlığın vəhdətində müəllim də ideallaşa bilir. Bütün həyatları boyu ondan nümunə götürən, onun yolunu davam etdirən, onu özü üçün ideallaşdıran şagirdlər bu gün də var, sabah da olacaqdır.

## ELXAN ELATLI İLƏ MÜSAHİBƏ

"Paklıq" qəzetinin bu dəfəki qonağı tanınmış detektiv yazıçı, bu gün gənc oxucuların sevimlisi Elxan Elatlıdır. 1962-ci il dekabrın 19-da Şamaxı rayonunda anadan olub, 1985-ci ildə BDU-nun mexanika-riyaziyyat fakültəsini bitirib. 157 saylı orta məktəbdə müəllim kimi çalışır. On üç romanı çap olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıdır. F.Köçərli adına uşaq kitabxanası onu "İlin yazıçısı" elan etmişdir. Qəzetimizin əməkdaşı Nisə Azikqızının yazıçı ilə müsahibəsini oxuculara təqdim edirik.

-Sonuncu əsərinizdə o biri əsərlərdən fərqli olaraq oxucularınıza yeni detektiv obrazı təqdim etdiniz. Bu obraz oxucular tərəfindən nə dərəcədə bəyənildi?

-Əslində, bu obraz da digər iki obraz kimi sevildi və qəbul olundu. Düzünü desəm, Ayxan Asayev Qasımlı və Ələmdarı əvəz edə bilmədi. Məncə o biri qəhrəmanlar olmasaydı, Ayxan daha çox sevilərdi.

-Əsərləriniz real həyatda baş verən hadisələrin, yoxsa öz fantaziyanızın məhsuludur?

-Real həyatda baş verən hadisələri tam olaraq romanda vermək olmaz. Bu heç də maraqlı alınmaz. Təbii ki, müəyyən oxşarlıqlar var. Əsasən də "Cəhənnəmdən gələn səs" və "Qisas gecəsi" romanlarında daha çox real

hadisələr üstünlük təşkil edir.

-Sizin əsas ixtisasınız riyaziyyatdır. Siz riyaziyyatçısınız. Bəs necə oldu ki, bədii əsər yazmağa başladınız?

-Uşaqlıqdan detektiv janrına xüsusi marağım olub. Şamaxıda rayon qəzetində kiçik şeirlərim və məqalələrim dərc olunurdu. 2000-ci ildən isə artıq detektiv yazmağa başladım.

-Bədii yaradıcılığınız sizi öz ixtisasınızdan ayırır?

-Bəli. Hətta demək olar ki, artıq öz sahəmdən uzaqlaşıram.

-Oxucularınız əsərlərinizi nə vaxtsa film kimi görəcək?

-Təkliflər çox olub. Amma məni qane edən təkliflər olmayıb. Təbii ki, nə vaxtsa ola bilsin ki, əsərlərimdən film və ya serial çəkilsin.

-Niyə məhz "Elatlı" təxəllüsünü seçdiniz?

-Bu təxəllüsdən hələ şeir yazanda istifadə edirdim. "Elatlı" el-obalı deməkdir. Çox bəyənmişdim. Sonralarsa dəyişmək istəmədim.

-Milli qəhrəman Mübariz İbrahimova həsr etdiyiniz "Qisas gecəsi" romanı oxucular tərəfindən çox sevildi. Hansısa qəhrəmana əsər həsr etmək fikriniz var?

-Hələ ki, dəqiq bilmirəm. Amma Ramil Səfərova həsr olunmuş bir əsər yazmaq istərdim.

-Sırf Qanbay Qasımlının öz həyatı haqqında roman yazmaq istəyirsiniz?

-Bəlkə də nə vaxtsa yazdım. Hal-hazırda isə belə bir fikrim yoxdur.

-"Ələkeçməz yaquar" romanında təqdim etdiyiniz detektiv Melisa obrazı oxucular tərəfindən çox sevildi. Yenə də əsərlərinizdə detektiv qadın obrazları olacaq?

-Bəli. Köməkçi detektiv qadın obrazları olacaq.

-Yeni əsərləriniz nə vaxt çıxacaq?

-Payızda iki əsərim çıxacaq. Birində Qanbay Qasımlı, digərində isə Ələmdar Məlikov olacaq.

-Müsahibə üçün sağ olun.

## TƏLƏBƏLƏRİN ADNA FACİƏSİ

Azərbaycanı və eləcə də bütün tələbə dünyasını dəhşətə gətirən bu faciə 2009-cu il aprelin 30-da saat 09-30 radələrində baş vermişdir. Terror ADNA-nın Bakı şəhəri, D.Əliyeva küçəsi 227 saylı ünvanında yerləşən ikinci binasında törəduilib. İçəri daxil olan şəxs binanın birinci mərtəbəsindən altıncı mərtəbəsinədək qarşısına çıxan hər kəsə "Makarov" tipli tapançadan açılan atəşlə xəsarət yetirib. İstintaq materiallarına və şahid ifadələrinə görə cinayətkar, qarşısına çıxanları əsasən, baş və boyun nahiyyəsindən güllələyib.

Ali təhsil ocağındakı qətliamın qarşısını almaq üçün hadisə yerinə dərhal polisin xüsusi təyinatlı nizami hissəsi, ərazi polisi və prokurorluq orqanlarının məsul əməkdaşları göndərilib.

Qanlı hadisə nəticəsində

1.Neft-qaz istehsalı və emalı texnikası kafedrasının müdiri, professor Abdullayev Ramiz Xəlil oğlu,

2.Nəzəri mexanika fakültəsinin laboratoriya müdiri Əzizova Tamilla Zülfüqar qızı,

3.Neft-qaz istehsalı və emalı texnikası kafedrasının müəllimi, dosent Vahidov Məcnun Abdulcahid oğlu,

4.Biotexniki və texniki cihazlar kafedrasının laborantı Məmmədova Şəfa Afət qızı,

5.Məmmədov Taleh Tariyel oğlu,
6.Bəndəliyev Yusif Telman oğlu,
7.Bağırov Ayaz Cavanşir oğlu,
8.Cabbarov Savalan Allahverdi oğlu,
9.Abdullayev Əmin İmaməli oğlu,
10.Babaşov Ruslan Cəfər oğlu,
11.Aslanov Ceyhun Sakit oğlu,
12.Qurbanova Ayna Abbasqulu qızı öldürülmüşdür.

Hadisəni törədən cinayətkar ələ keçməmək üçün əlindəki silahla özünü də vurmuşdur. Aparılan araşdırmalardan məlum oldu ki, cinayətkar 29 yaşlı Gürcüstan vətəndaşı Fərda Qədirovdur.

Ağır cinayətlərə dair məhkəmənin 10 avqust, 2010-cu il il tarixli hökmü ilə cinayət üzrə təqsirli bilinənlər– Ariz Qabulov 11 il, Cavidan Əmirov, Nəcəf Süleymanov və Nadir Əliyev ömürlük olaraq azadlıqdan məhrum edilib. ADNA-da baş verən kütləvi qətlin sifarişçisi kimi təqdim edilən erməni əsilli Gürcüstan vətəndaşı Qumaşyan Martun Qriqoryeviç Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin terrorçuluq üzrə digər maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilməsi barədə müvafiq qərar qəbul edilib. Onun barəsində beynəlxalq axtarış elan olunub.

Azərbaycanın nüfuzlu ali təhsil ocağında baş vermiş bu terror aktı insan itkisilə yanaşı ölkənin genofonduna da ciddi zərbə vurdu. Erməni xüsusi xidmət orqanlarının bu hadisəni məhz ali məktəbdə törətməsi planı ölkə gənclərinin hədəfə alınmasına hesablanmışdı. Lakin ermənilər bir faktı nəzərə almamışdılar. Azəri xalqının cəsarətini nə terror, nə kütləvi qətllər, nə də başqa məkrli planlar sındıra bilməz.

## *ÜLVİYYƏ HADİYEVA*

Ülviyyə Kamil qızı Hadiyeva 1994-cü ildə Maştağa qəsəbəsində anadan olmuş, 2011-ci ildə qəsəbədəki 209 saylı orta məktəbi bitirmişdir. Hal-hazırda 13 saylı peşə litseyində təhsil alır. Ədəbiyyatı, xüsusən də poeziyanı çox sevir, çoxlu mütaliə edir. Hərdən kiçik mənsur şeirlər, xatirələr yazır, amma çapa vermir.

## MİRZƏ İBRAHİMOV- 100

Noyabrın 24-də Azərbaycan Dövlət Dram Teatrında xalq yazıçısı Mirzə İbrahimovun 100 illik yubileyinə həsr olunmuş musiqili ədəbi-bədii gecə keçirilmişdir. Tədbiri giriş sözü ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev açmış, yazıçı haqqında öz ürək sözlərini söyləmişdir. Yığıncağın aparıcısı filologiya elmləri doktoru Nizaməddin Şəmsizadə yazıçının hıəyat və yaradıcılığı haqqında geniş məruzə ilə çıxış etmişdir. Tədbir iştirakçılarından Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, akademik Teymur Bünyadov, xalq şairi Sabir Rüstəmxanlı çıxış edərək Mirzə İbrahimovun keçdiyi mənalı həyat yolundan və yaradıcılığından danışmışlar. Xanəndələr muğam nömrələri ilə, teatrlar yazıçının əsərlərindən tamaşa hissələri ilə tədbiri daha da rövnəqləndirmişlər.

## “MAŞTAĞA” – “NUR”

Oktyabrın 30-da Maştağa Olimpiya Kompleksində futzal oyun keçirilmişdir. Yeni yaradılmış, həvəskarları birləşdirən “Maştağa” və “Nur” komandalarının görüşü 7:3 hesabı ilə “Maştağa” komandasının xeyrinə başa çatmışdır. Qalib komandanın məşqçisi Şahin Kamil, kapitanı Sakit Məmmədlidir. Oyunda ən çox qol vuran Yunus Əlimərdanov olmuşdur. Qələbənin qazanılmasında komandanın digər üzvlərinin - İlqar, Fuad, Elçin, Vasif, Mirzağa və Salmanın da öz payı var. Komandanın üzvlərini qələbə münasibəti ilə təbrik edir, onlara gələcək oyunlarda uğurlar arzulayır, komandaya azərkeşlik eləyən Maştağa və Bilgəh qəsəbə sakinlərinə təşəkkürümüzü bildiririk.



**MÜNDƏRİCAT**

**ZİYALI QADINLAR MƏCLİSİ**......3

***GÖVHƏR MAŞTAĞALI***......5
Allahım ......5
Əli (ə)......6
Axdı ulduz, qaraldı Ay, ......6
Fatimə (ə)......7
Bütün qadınların ulu rəhbəri,......7
İmam Həsən (ə)......8
Mahi-mühərrəm......9
Hüseynim (ə)......9
Mühəmməd Baqir (ə) ......10
Bu dünyaya aldanma ......10
Dünya mənə dar gəlir ......11
Səfası yox dünyanın ......11
İnsan......12
Etmə xəyanət......12
Ən böyük sual ......13
Bənövşə ömrü......13
Bənövşə......14

***İNSAFXANIM*** ......15
20 yanvar günü......15
Dünyada ......16
Ayrılıq dərdi......17
İbrətnamə ......18
Atacan ......19
Yetim......20
Sönmüsən daha......20
Mənim deyil ......21
Öyünmə, insan......22
Bağışla məni......23
Dünya......23

***YEGANƏ*** ......25
Çox cahillər girib bəhsə......26
Bu aralar, bircə, mənə dəyməyin......27
Alışmışam
Zilə çıxmaq mənlik deyil......28
Dözümünü ölçdü ömrüm......28
Sən mənə bir dünya sevinc gətirdin......29
Ağıl hisslərə daraqdır
"Oğul düşmən çəpəridir" ......30
İçini nə isə didir......31
Varmi xəbərin......32
Bir sehrli kəlmə söyləsəm sənə ......33
Sən bu vaxta qədər harda idin bəs ......33
Çaşıb ağlım "hə" demişəm......34
Sən məndən dəlisən, mən səndən dəli ......35
Səni bir anlayan, duyan olmamış......36
Kimsə görə bilməz mən görən səni ......36
İçini açdım......37

***MEHPARƏ ŞƏYYAF***..............................................................38
Məhəbbəti axtarmayın..............................................................38
Bahar sevinci..............................................................39
Əsil məhəbbət..............................................................40
Müəllim ömrü..............................................................40
Körpə beşiyi..............................................................41
Son zəng..............................................................42
Müəllim..............................................................43

***SEHRAN ZİYAYİ***..............................................................45
Azərbaycan deyəndə..............................................................45
Bir şəhid sədası..............................................................46
Dəniz - mənim həyatım..............................................................47
Haqqını halal et, ana..............................................................48
Danış..............................................................49

***MƏTANƏT***..............................................................51
Əbəlfəz..............................................................51
Təbiət..............................................................52
Ana..............................................................53
Zəhra qızıma..............................................................53

***GÜLNARƏ ŞAMİ***..............................................................55
Tənha söyüd..............................................................**55**

***UTARİDA ƏSƏD***..............................................................56
İnsan gəlir dünyaya..............................................................56
Payız simfoniyası..............................................................58

***PÜNHAN SƏDA***..............................................................60
Rəsul Rza..............................................................60
O mənim anam idi..............................................................65
Səni sevmək üçün gəldim dünyaya!..............................................................69
Mən səni seçdim ki..............................................................71

***ÜLVİYYƏ BAHİR***..............................................................74
Tarix yazan ömür..............................................................74
75-ci baharın mübarək!..............................................................77
Qədir dünyası..............................................................79
Sevgi şairi..............................................................82
İşıq həyatdır..............................................................84
Allahın mükafatı..............................................................86

***NURANƏ AXUNDZADƏ***..............................................................88
"RİO- 20"-yə məktub..............................................................88

***NİSƏ AZİKQIZI***..............................................................94
Mənim idealım..............................................................94
Elxan Elatlı ilə müsahibə..............................................................96
Tələbələrin ADNA faciəsi..............................................................98

***ÜLVİYYƏ HADİYEVA***..............................................................100
Mirzə İbrahimov- 100..............................................................100
"Maştağa" – "Nur"..............................................................101

# MAŞTAĞA ZİYALI QADINLAR MƏCLİSİ

(*almanax*)

Naşir: *Rafiq Xan-Sayad oğlu*
Korrektor: *Ülviyyə Hadiyeva*
Texniki redaktor: *Ülvi Arif*
Dizaynerlər: *İradə Əhmədova, Jeyhun Əliyev*
Operator: *Rübabə Vəliyeva*

Yığılmağa verilib: 20.05.2012
Çapa imzalanıb: 15.06.2012
Ş.ç.v. 6,5, tiraj 300
«MBM» mətbəəsində çap olunub.